**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi**

**Azərbaycan Turizm İnstitutu**

**Fakültə:** *"Turizm işinin təşkili və idarə edilməsi"*

**İxtisas:** *"Muzeyşünaslıq-diyarşünaslıq"*

**Bölmə:** *Azərbaycan*

**Qrup:** *MD 0701*

**Mirseyibli Sədi Aydın oğlu**

**BURAXILIŞ İŞİ**

**Mövzu:**

# *"Abşeronun dini abidələri tarixi – mədəni dəyərlər kimi"*

**Elmi rəhbər:** *Sənətşünas, S.Ə.Kərimova*

**"Təsdiq edirəm"**____________________

**"İctimai fənnlər" kafedrasının müdiri:** *Tarix üzrə fəlsəfə doktoru, dosent İ. Z. Əliyev*

"____" _____________

**Bakı 2011**

# MÜNDƏRİCAT

**GİRİŞ** ..........................................................................................3-5

**I FƏSİL.**

**Qədim və Orta əsrlərdə Azərbaycanda dini abidələr**.........................6-34

**1.1. Qədim dövrdə din və dini abidələr** ..........................................6-22
**1.2. Bakının şəhərsalma və memarlıq tarixi** ...................................23-34

**II FƏSİL.**

**Mədəni tarixi turizmdə Abşeron dini abidələrinin rolu**.....................35-57

**2.1. Xristianlıq dini abidələri mədəni dəyərlə kimi**............................35-46

**2.2. İslam memarlıq nümunələri mədəni– tarixi dəyərlər kimi**........47-57

**NƏTİCƏ** ........................................................................................58-59

**Ədəbiyyat** ......................................................................................60-62

**İllüstrasiya** .....................................................................................63-64

## Giriş

**Tədqiqatın aktuallığı.** Abşeron Azərbaycanın mədəni və dini baxımdan ən qədim məskənlərindən biridir. Bu məkanın dini memarlıq abidələrini hər tərəfli tədqiq etməkdən ötrü mütləq dini dəyərlərin yarandığı zamanlardan başlamaq lazımdır. Bu səbəbdən Azərbaycan tarixində yaranan ilk dini dünyagörüşün yaranma səbəblərini və bu dinlərin sayəsində müxtəlif zamanlarda ölkəmizdə yaradılmış dini memarlıq abidələrindən söhbət açılmalıdır. Aparılmış arxeoloji qazıntılar nəticəsində sübuta yetirilmişdir ki, müxtəlif dövrlərdə mövcud olmuş dini memarlıq abidələrinin bir çoxu özündən sonra gələn digər dinlərin təsiri nəticəsində elə onun yerində də o dinə uyğun memarlıq abidəsi ucaldılmışdır. Dini memarlıq abidələri Azərbaycanda mövcud olan dinlərə uyğun inşa olunmuşdur. Bu abidələrin yaradılma əhəmiyyəti yalnız dinə ibadətdən irəli gəlmişdir. Abşeron ərazisində yerləşən dini memarlıq abidələri öz əhəmiyyətini daima qorumaqda davam etdirir. Qədim zamanlarda mövcud olmuş Zərdüştlük dini abidələrindən tutmuş, Xristianlıq və İslam dininə mənsub olan memarlıq abidələrinin mövcudluğu tədqiqat işinin əsas qayəsini təşkil edir.

Mövzunun aktuallığı ondan ibarətdir ki, ölkəmizdə əsası ilkin dini inanclara dayanan, bu gün Abşeronu öz gözəlliyi ilə bəzəyən məbədlər, qalalar, məscidlər, kilsələr, dini inanc yerləri mədəniyyətimizin şöhrətini daha da artırmaqdadır. Qədim dini inancları özlərində ehtiva edən və Azərbaycandan kənarda yaşayanlar, indinin özündə də həmin abidələri özlərinin dini ziyarətgahlarına çeviriblər. Bu isə dini turizm anlayışının daha da inkişaf etməsinə öz töhfəsini verir. Bu nöqteyi nəzərdən ölkəmizə gələn bütün insanlar bu möhtəşəm dini memarlıq abidələri ilə yaxından tanış olmaq imkanına malikdirlər.

**Mövzunun işlənmə dərəcəsi.** Mövzunun aktuallığı həm də onun işlənmə dərəcəsi ilə müəyyən edilir. Abşeronun dini abidələri haqqında mətbuatda kütləvi sayda elmi əsərlər mövcuddur. Bununla yanaşı aparılmış tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Abşeronun qədim dini abidələri xüsusən də xristian dini memarlıq nümunələri haqqında yetərincə məlumat verilməmişdir. Lakin Abşeronda yerləşən dini memarlıq nümunələrindən olan islam dini abidələri barədə hər tərəfli elmi

tədqiqat işi aparıldığının da şahidi oluruq. Abşeron memarlıq məktəbinin nümunələri haqqında R. Əfəndi "Azərbaycan İncəsənəti" kitabında, S. Aşurbəyli "Bakı şəhərinin tarixi" əsərində, C. Qiyasi "Abşeron abidələri" məqaləsində, M. Nemətova "Azərbaycanda pirlər" kitabında və s. mənbələrdə dini memarlıq nümunələrinin mövcudluğu haqqında elmi məlumat öz əksini tapmışdır.

**Tədqiqatın məqsədi.** Məqsəd əsasən Abşeron memarlıq abidələrinin turizmi nöqteyi nəzərdən baxımlığını önə çəkməkdən ibarətdir. Bu nöqteyi nəzərdən Abşeron ərazisində mövcud olan bütün dini memarlıq abidələrinin qısada olsa şərhi öz əksini tapmışdır. Azərbaycan ərazisində mövcud olmuş bütün dinlərin təsnifatı ilə yanaşı onların müxtəlif zamanlarda inşa etdirdikləri dini abidələri haqqında müqayisəli təhlil aparılması məqsəd kimi də göstərilmişdir. Qarşıya qoyulan əsas məqsəd isə ölkəmizə gələn turistlərin marağını Abşeron memarlıq abidələrinə cəlb etməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri** onun məqsədindən irəli gəlir:

--Azərbaycan ərazisində mövcud olmuş dinlərin qısa təsnifatı və bu dinlərə aid Abşeronda mövcud olan dini memarlıq abidələrinin təhlili.

--Abşeron dini memarlıq məktəbində mövcud olan abidələrin bir çox dinlərə aid tikili nümunələri ilə müqayisəli təhlilinin verilməsi.

--Abşeron memarlıq məktəbində mövcud olan İslam dininə aid tikililərin təhlili.

--Abşeron dini memarlıq məktəbinin turizmi cəhətdən ön plana çəkilməsi

**Tədqiqatın obyekti və predmeti** onun aktuallığı və yeniliyi baxımından seçilib: Azərbaycan ərazisində mövcud olmuş dini memarlıq nümunələrinin müqayisəli təhlili qarşıya qoyulmuşdur.

Bir çox tədqiqatçılar Abşeron dini memarlıq abidələri haqqında yetərincə məlumat vermişdilər. Biz əsasən bu elmi işlə sübut etməyə çalışırıq ki, Abşeron yarımadasında mövcud olan dini memarlıq nümunələri turizm nöqteyi nəzərdən öz yerini tapmamışdır. Bu dini memarlıq abidələri gələcək zamanda turizm baxımından daha çox maraq kəsb edə bilər.

**Tədqiqatın metodoloji əsasları.** Metodoloji əsaslar kimi tarixi-mədəni, tarixi-bədii və tarixi-memarlıq yanaşma tərzinə üstünlük verilib. Buraxılış işi üzərində

işləyən zaman tədqiqatda kompleksli metoddan istifadə edilmişdir, yəni əyani şəkildə material əhatəli şəkildə təhlil olunmuş, Abşeron dini memarlıq abidələrinin tarixi, üslubu və tipoloji xüsusiyyətləri öyrənilmişdir. İlk növbədə faktiki material hərtərəfli təhlil edilmiş, imkan daxilində bütün öyrənilən dövrə aid abidələr qeydə alınmışdır.

Buraxılış işində materiallar mümkün qədər əhatəli verilib, bununla belə, qarşımıza qoyulan problem hədlərində maraq doğura biləcək bütün obyektləri təhlil etmək qeyri-mümkün olmuşdur və burada xüsusi seçim aparılmışdır. Meyar kimi aşağıdakı mövqe əsas götürülmüşdür: ilk növbədə, icrasına görə yüksək səviyyədə olan Abşeron dini memarlıq abidələri seçilmişdir. Bu abidələrin turizmi nöqteyi nəzərdən əhəmiyyətinin ön plana çəkilməsi əsas götürülmüşdür.

**Elmi yenilik.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin özünün qoyuluşu ilə müəyyən olunur və əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

--İlk dəfə Abşeron dini memarlıq abidələri kompleks şəklində təhlil edilmişdir.

--Abşeron yarımadasında yerləşən bütün dini memarlıq abidələri haqqında qısa xarakterli məlumatın verilməsi öz əksini tapmışdır.

--İlk dəfə Abşeron yarımadasında yerləşən dini memarlıq abidələri turizmi cəhətdən göstərilmişdir.

**Buraxılış işinin quruluşu.** Buraxılış işi giriş, iki fəsil, dörd yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 63 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində buraxılış işinə əlavə kimi təqdim olunmuşdur.

# I. Fəsil. Qədim və Orta əsrlərdə Azərbaycanda dini abidələr.

## I.1. Qədim dövrdə din və dini abidələr.

Din ərəbcə, fövqəltəbii qüvvənin və ya qüvvələrin olmasına inam deməkdir. Həmin qüvvələr təbiət qanunlarına tabe deyil, əksinə təbiəti də, onun dəyişməsi və inkişafını da təyin edir. Məhz ona görə fövqəltəbii qüvvə zəkanın gücü ilə dərk edilməzdir, o, insana yalnız dərin etiqad və inamla müyəssər olur. Dünyada çoxlu dinlər var ki, sadə şeyirə bənzəyir, bəziləridə yazılmış qalın kitablardan ibarətdir. Ortaya belə sual çıxır, bir–birindən fərqli olan bu dinləri biz insanlar niyə din adlandırırıq? Bu dinlər bir - birindən nə qədər öz icra formalarına görə ayrılsalar da, onlar ümumi bir fikir ətrafında birləşirlər. Bütün dinlərdə hesab edilir ki, gözümüz qarşısında duran təbiətdən yuxarıda güc və güclər var ki, onlar təbiətin qayda-qanunlarına tabe olmur, əksinə təbiəti özlərinə tabe edirlər. İnsan qayaya baxır əlini onun kələ-kötür üstündə gəzdirir, ancaq burada heç nə hiss etmir. Lakin insan daxilən inanır ki, əlini, üzünü bu kələ-kötür qayaya sürtməklə öz halında yaxşılığa doğru irəliləyiş hiss edəcək, burada artıq dini duyğular, dini düşüncələr fövq etməyə başlayır. Dinlər qəbul etdikləri fövqəltəbii qüvvələrin mahiyyət və xarakterinə görə iki yerə ayrılırlar:

Politeist (çoxallahlı dinlər) və monoteist (təkallahlı dinlər). Monoteist dinlərdə allah təkdir, o dünyada mövcud olan bütün varlıqların yaradıcısı və öldürücüsüdür.

İbtidai dinlər adlanan politeist dinlərdə allahlar çoxdur, onları müxtəlif simalarda; təbiət hadisəsi, heyvan, bitki və s. formalarda insanlar tərəfindən canlandırılırdı. Azərbaycanda politeist dini təsəvvürlərin kökləri çox qədimlərə gedib çıxır və özündə “animizm, fetişizm, totemizm, şamançılıqdan və magiyadan” tutmuş tanrıçılığa qədər müxtəlif xalq inanclarını ehtiva edir. [1,səh-151].

Azərbaycanda mədəniyyətin inkişaf mərhələsinin birinci hissəsi ümumtürk, ümumbəşəri, arxaik–totemistik inkişaf dövrüdür. [15,səh-227]. Burada bir sıra heyvanlar, xüsusi ilə öküz mifi başlıca yer tutur.

Totemizm əlamətlərinin meydana gəlməsi insanın mədəni inkişafa doğru atdığı ən uğurlu addımlarından biridir. “Totem” sözü Şimali Amerika hindularının dilindəki “O totem” (yəni “onun soyu, nəsli”) sözlərindəndir. Totem dinlərində hər

hansı qəbilə, adətən hər hansı bir canlını, bəzənsə təbiət hadisəsini, məsələn hər hansısa qayanı özünə əcdad sayır. Totemizmin izləri müəyyən qədər XIV – XV əsrlərdə də qalmaqda idi. Doğrudur həmin dövrlərdə islam dini hökmranlıq etsə də Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin bayraqlarında ağ və qara qoçun təsvirini vurğulamaq yerinə düşər. Qədimlərdə insanlar totem heyvanları özləri ilə aparırdılar, onun davranışlarını yamsılamağa çalışır, elə zənn edirdilər ki, bu davranış və hərəkətlər vasitəsilə qeyri–adi gücə malik olurlar. Totem heyvan xasiyyətini, səsini daha düzgün icra edən icmada ən hörmətli şəxs sayılırdı. Qədim türklərin ən qədim totemlərindən biri olan "Boz Qurd" u şüa ilə göydən enmiş sayıblar. Onuda vurğulamaq lazımdır ki, türklər "boz" sözünü "göy" rəngi bildirmək üçün işlədiblər.

Dinin əski növlərindən biri də Şamanizmdir. Türklər şamana "qam" deyiblər. Şamana görə görünən təbiətdən, o biri tərəf ruhlar aləmidir. Bu ruhlar aləmi özündə pis və yaxşı ruhları birləşdirir. Şamanlar elə adamlardır ki, onlar təbiətüstü güclərlə danışığa girə bilərlər, ruhları kimisə sağaltmağa çağırırlar və bəzən də pis ruhları bədəndən çıxarmağıda bacarırlar. Şamançılıq təkcə türklərdə yox, Amerika hindularında, Afrika xalqlarında da olmuşdur. Bir çox tədqiqatçılarımız, Dədə Qorqudu qam, şaman sayır və göstərir ki, sadəcə sonralar dastanlarımız, yəni "Kitabi–Dədə Qorqud" boyları onun şamançılığını unutmağa başlamışdır. Şamanizm dini təbiətdən üstün gücə malikdir.

Magiya (latınca və yunanca-sehrbazlıq) – qədim dini görüş formasıdır. Magiya elementləri əksər xalqların dini adət-ənənəsində öz əksini tapıb. Magiya sözü qədim Azərbaycan tayfalarından olan maqların adı ilə bağlıdır. Beləki, qədim dövrlərdə məhz maqlar sehr və ovsunla məşğul olduqlarına görə qədim yunanlar bu cür əməlləri "maqların əməli" anlamında "magious" adlandırıblar. Zaman keçdikcə həmin söz latınlarında dilinə keçib və magiya şəkilində bir çox dünya xalqlarının dilində bu gün də işlənməkdə, maqların adını yaşatmaqdadır.

Fetişizm maddi əşyalara itaətə əsaslanan dünyagörüşüdür. Beləki, magiya mərhələsindən sonra fövqəltəbiiliyin xüsusi predmetlər vasitəsi ilə həyata tətbiqinə inam yaranır. Dua və ovsunlarla təbiətə təsir etməyin mümkünlüyünə razılaşan ulu əcdad işini daha sistemli qurmaq məqsədilə sehrli vasitələr düşünməyə başlayır. E.

Teylora görə fetişizm animizmin bir formasıdır, fetiş isə ruhların yerləşdiyi məkandır. Bunun tam forması dinlərin hamısında xüsusi predmetlə özünü göstərir ki, ona itaət və ibadət edirlər. Xristianlıqda xaç, "Bibliya" və ikona, İslamda Kəbədəki qara daş və "Quranı–Kərim" dindarlar tərəfindən qeyri–adilik dərəcəsinə qaldırılıb fetişləşdirilir.

Animizm-ruhlara etiqad. Ruhlar heyvanların, insanların həyatında ətraf aləmin predmetinə və hadisələrinə təsir göstərir. Animistik təsəvvürlər ibtidai cəmiyyətdə meydana gəlmişdir. Animizmin yaranmasına əsas səbəb məhsuldar qüvvələrin inkişaf səviyyəsinin son dərəcə aşağı və bunun nəticəsində bilik ehtiyatlarının az olması insanın kənar bir şey kimi təsəvvür etdiyi kortəbii təbiət qüvvələrinə qarşı durmağa qabil olması idi. Bu qüvvələrin canlandırılması cəmiyyətin inkişafının müəyyən pilləsində həmin qüvvələrin mənimsəmə forması olmuşdur. Animistik təsəvvürlər sonrakı dini etiqadların əsasını təşkil etmişdir. Animizm prinsipcə hər bir dinə xasdır.

1968–ci ildə Azıx mağarasında aparılmış tədqiqatın nəticəsində Quruçay arxeoloji mədəniyyəti tapılmışdır. Azıxda yaşı 350–400 min il olan insanın (azıxantrop) alt çənəsinin fraqmenti tapılıb. Bu fraqment qədimliyinə görə dünyada dördüncü insan fraqmentidir. Azıxantrop tədricən tikinti vərdişləri qazandı, onda dini təsəvvürlər əmələ gəldi (üzərində xüsusi nişanlar olan ayı kəllələri tapılıb), ibtidai incəsənət yarandı. Bu proseslər alt paleolit dövrünə təsadüf edir. Orta paleolit dövründə də ovçuluq və yığıcılıq başlıca məşğuliyyət növü olaraq qalırdı. Qafqaz maralı, mağara ayısı və boz ayı, dağ keçisi və vəhşi at–kulan ovlayırdılar. Həmin dövrdə dini təsəvvürlər də dəyişikliklər baş verir, o dünyaya inam, totemizm, ovsun və bir çox başqa ibtidai dini formalar yaranırdı. Orta paleolitdə insan sürüsünü tədricən nəsil icması başqa cür desək, qəbilə icması əvəz etdi. İ. Cəfərzadənin Qobustan qayalıqlarında apardığı bir çox tədqiqatın nəticəsində "Firuz" məskənində ölmüş insanın məzarına qoyulmuş əşyalar aşkarlandı. Bu əşyaların məzara qoyulmanda məqsəd, ölmüş insan həmin əşyalardan o biri dünyada istifadə edəcək. Bununla yanaşı Qobustanda külli miqdarda mezolit dövrünə aid qaya rəsmləri mövcuddur. Həmin rəsmlər yəni ov səhnələri totemizmi

təsvir edir. Eneolit dövrü matriarxatın çiçəklənmə dövrüdür. Bu dövrə aid Cəlilabad və Əliköməktəpə ərazisində əhliləşdirilmiş at sümükləri tapılıb. Bu dövrün dini təsəvvürlərində də böyük dəyişikliklər baş verdi. Dəfn mərasiminə böyük diqqət yetirilirdi. İnsanları evlər arası ərazilərdə, uşaqları isə evin içində döşəmənin altında dəfn edirdilər. Dini mərasimlərdə ovsun böyük yer tuturdu ki, Qobustandakı bəzi rəsmlər həmin mərasimləri təsvir edir. Əgər neolit və eneolit dövrlərində əhali yalnız düzənliklərdə yaşayırdısa, alt tunc dövründə insanlar dağətəyi və dağlıq bölgələrdə məskən salırdılar. Neolit və eneolit dövrlərində evlər çiy kərpicdən inşa edilirdisə, Kür–Araz mədəni dövründə çaylaq daşlarından olan bünövrədən istifadə edilirdi. Naxçıvanda II Kültəpəni belə məskən nümunəsi kimi göstərmək olar. Bunun nəticəsində divarlarına ustalıqla mala çəkilmiş mehrablı xüsusi böyük ibadət binaları meydana gəldi. Belə ibadətgahlar Naxçıvanda Kültəpə, Xaçmazda Sərkərtəpə, Qazaxda Babadərviş məskənlərində aşkar edilib. Tunc dövründə baş vermiş ictimai əmək bölgüsünün nəticəsində maldarlar arasında təbəqələşmə sürətlənirdi. Mil düzənliyinin Üçtəpə yüksəkliyində aşkar edilmiş qəbilə başçısının məzarı buna sübutdur. Məzarın yaşı III minilliyin II yarısı kimi müəyyən edilib. [15,səh 217]. Kür – Araz mədəni dövründə eneolitdən fərqli olaraq ölüləri yaşayış məskənlərindən kənarda dəfn edirdilər, qəbirlər üzərində təpəliklər yüksəldirdilər. Bunun nəticəsində alt tunc dövründə ölüləri yandırma və kollektiv dəfn etmə mərasimləri meydana gəldi. Məzarların quruluşu güclü təbəqələşmənin mövcudluğuna dəlalət edirdi. Məzar təpəliklərindəki dəfn əşyaları zəngin və çoxçeşidli idi. Orta tunc dövründə yandırılma daha da sürətlənmişdi. Bu dövrdə eyni zamanda ölülərin üzərinə “oxra” deyilən qırmızı boya səpirdilər ki, bu da əbədiyyət rəmzi günəşin simvolu idi.

Dində şamançılıq və ovsunçuluq bu dövrdə də öz aktuallığını qoruyurdu. Qobustan, Gəmiqaya və İstisu qayalarında olan rəsmlər bu prosesləri özündə bir daha ehtiva edir. Arxeoloji qazıntıların nəticəsi olaraq Üst tunc alt dəmir dövrlərinə aid Qarabağ, Naxçıvan, Gəncə-Qazax və Şəki-Zaqatala bölgələrində aşkar edilib. Bu qəbirlərdən külli miqdarda məişət əşyaları, sənətkar aləti, zinət əşyaları və s. aşkar edilmişdir. Bu dövrdə eyni zamanda at minik və yük daşıma vasitəsi kimi öz

əhəmiyyətini artırırdı. Ata sitayiş mərasimləri meydana gəlir, dəfn edilənlərin məzarlarında atları da basdırırdılar. Bu məzarlardan eyni zamanda dəvə skeletlərinin tapılması bu dövrdə dəvəçiliyində inkişafından xəbər verir.

Qəbilə quruluşunun inkişafı qəbilə başçılarının hakimiyyətinin güclənməsi onların ilahiləşdirilməsi ilə nəticələnirdi. Onların məzarında hündür təpəliklər ucalır, hətta ölümlərindən sonra belə onlara sitayiş olunurdu. Arxeoloji qazıntılar nəticəsində onların məzarlarından məişət, zinət əşyaları, silahlarla yanaşı insan sümüklərinin qalıqlarına da rast gəlinir. Bu tapıntılar belə qənaət gəlməyə əsas verir ki, qəbilə başçıları ilə birlikdə onların nökərləri, kənizləri hətta arvadları da dəfn edilirdilər. O dövrün inanclarına görə bunlar o dünyada başçıya gərəkli olacaqdı.

Üst tunc və alt dəmir dövrünün dini təsəvvürlərində oda, suya, dağlara, meşələrə, günəşə, aya, ulduzlara sitayiş mövcud idi. Bu proseslər Azərbaycanın şimalından fərqli olaraq Cənubunda da davam edirdi. Amma burada dövlətlər daha əvvəl meydana gəlir və sürətlə qonşuluq icması inkişaf edirdi. Cənubda zənginlər müflisləşmişdilər. Buna sübut onların məzarlarında əşyaların olmamasıdır. Sinfi cəmiyyətdə qonşuluğun meydana gəlməsi "qul anlayışını" formalaşdırdı ki, bu qullarda sahiblərinin yanında dəfn edilirdilər. Şimali Azərbaycandan fərqli olaraq Cənubi Azərbaycanda nəsil icmasının süqutu e.ə III minilliyin əvvəli, II minilliyin sonunda ibtidai sinfi cəmiyyətlərin yaranmasına səbəb oldu. Dövrümüzün bu günündə də insanlar təbiətdə var olan hər bir varlığın ilahi qüvvə tərəfindən yarandığını sübut etməyə çalışırlar. Bu proseslər Azərbaycanda erkən dövlət qurumlarında da davam edirdi.

Arattada çoxallahlıq (politeizm), yəni müxtəlif tanrı və tanrıçalara (ilahilərə) sitayiş mövcud idi. Bəzi qaynaqlarda göstərilir ki, "İnannaya" ibadət geniş yayılmışdı. Arattada itaət edilən dinlər və ilahilər haqqında "Enmerkar silsiləsinin I hissəsində Enmerkar və Aratta hökmdarı" dastanında məlumat mövcuddur. Burada İnannadan başqa Zamaşa və İşkur (külək ilahəsi göstərilib) bu ölkədə qurbanlar kəsilir, nəzirlər verilir, dualar oxunur. İnannanın Arattada müqabil adı məlum deyil. Akkadlar bu adı "İştar" adlandırırdılar. Qaynaqların məlumatına əsaslanaraq Aratta ilə əlaqədar adı çəkilən digər bir ilahi "Lamadır" (Arattanın mühafizəkarı hesab

edilirdi). Şumer tanrısı "Dumuzi" həmçinin Arattanı himayə edirdi. Aratta panteonuna ilahə başçılıq edirdi. "İştar" Akkad mifologiyasında tanrıça idi. Tarixi mənbələrin məlumatına əsasən İştar Şumer mifologiyasına görə İnannadan törəmişdir. İnanna Enlilin dünyasında yaranan ilk qadındır. Assurlarda panteonun baş tanrısı İştar olmuşdur. O, Assurun zövcəsi hesab edilirdi. Onun məbədləri Arbela və Ninovada yerləşirdi. Ona müharibə ilahəsi kimi ibadət edirdilər. Dini idarələri maşmaş idarə edirdi. İştarın şərəfinə keçirilən bayramlarda insanlar özlərini döyür, zədələr yetirirdilər. Qədim yunan tarixçisi Herodot yazırdı ki, Babildə doğulan hər bir qadın heç olmasa həyatında bir dəfə İştar məbədinə gəlməli idi.

Lullubilər səma, günəş, bərəkət və məhəbbət, ay və.s tanrılara sitayiş edirdilər. Təəssüf ki, bu tanrıların adları lullubi dilində bizə çatmamışdır. Anubinin daş sütunda bu tanrıların akkad dilində adları çəkilir. Anum (səma tanrısı), İştar (bərəkət və məhəbbət ilahəsi, bu ilahəyə İnanna adı ilə Aratta dövlətində də sitayiş olunurdu), Sin (ay ilahəsi, bu ilahəyə sitayiş Selena adı ilə Qafqaz Albanlarında da mövcud olub), Şamaş (Günəş tanrısı) və.s daş sütun abidəsində səma tanrısı Anumun adı birinci çəkilir. Tədqiqat nəticəsində aydın olur ki, lullubi cəmiyyətində ata nəsil hüququ artıq üstünlük təşkil edirdi.

Azərbaycan ərazisində kiçik dövlətlər öz yerlərini tarixdə adları xüsusi ilə qeyd edilən dövlətlərə Manna, Atropatena, Albaniya kimi dövlətlərə vermişdi.

Manna - e.ə I minilliyin əvvəllərində Urmiyanın Zaqros hissəsində müxtəlif birləşmələrin yaranması burada ilk iri siyasi birləşmənin–Manna çarlığının meydana gəlməsi üçün zəmin hazırlayır. Bu çarlığı Cənubi Azərbaycan ərazisində ilk iri dövlət qurumu hesab etmək olar. Mannanın adı mixi yazılarda ilk dəfə e.ə 843–cü ildə III Salmanasar kitabəsində "Munna" formasında çəkilmişdir. Assurlar Mannanı "manneylər ölkəsi", Mannaş, Urartular isə Manna ölkəsi adlandırırdılar. Manna adı mənşəcə yerli ad idi. Bu ad əvvəlcə Urmiya yanı tayfalardan birinə məxsus olmuş, sonra mannalıların birləşdiyi torpaqların hamısına yayılmışdı. Aparılmış tədqiqatlar nəticəsində Mannanın dövlət quruluşu haqqında belə təsəvvür yaradırlar: dövlətin başında irsi hakimiyyətə malik hökmdar dururdu.

Dövlətin ərazisi hökmdarın təyin etdiyi canişinlər tərəfindən idarə olunan əyalətlərə bölünürdü. Q.A. Melikişvilinin verdiyi məlumat görə təyin olunmuş canişinlərində hakimiyyəti varislik əsasında qurulurdu. Manna özünün ən parlaq çiçəklənmə dövrünə hökmdar İranzunun sələfləri və onun öz hakimiyyətinin illərində çatır. Mannanın dövlətçiliyi ilə yanaşı onun mədəniyyəti də hər tərəfli inkişaf edirdi. Qədim dövrün müxtəlif xalqlarının mənəvi mədəniyyətində dini etiqadlar və ayinlərin icrası xüsusi yer tutur. Manna əhalisinin dini etiqadları ilə tanışlıq onun mədəniyyətini və incəsənətini, dünyagörüşünü anlamaq üçün zəruridir. Manna əhalisinin dini etiqadları haqqında yazılı məlumatlar son dərəcə məhduddur. Bu qaynaqlarda Manna sakinlərinin sitayiş etdikləri allahların adı çəkilmir, məbədlərin adları göstərilmir. Arxeoloji qazıntılar zamanı mannalılara aid məbədlər aşkar edilmişdir. Bu məbədlərdə mannalıların sitayiş etdikləri allahların heykəlləri tapılmışdı. II Sarqon deyir ki, mannalılar çarları Ullusun ilə Aşşur və öz allahlarına təşəkkür duası oxumuşlar; "Onlar mənim səltənətimə Aşşurun və yaşadıqları ölkənin allahlarının hüzurunda xeyir–dua vermişlər." [19,səh102].

Həsənlidə aparılmış qazıntı işləri zamanı aşkara çıxarılmış məskənin binalarından birini məbəd hesab etmişlər. Bu binanın ortasında kərpic meydança aşkarlanmışdı. Tədqiqatçıların fikirlərinə görə, gətirilən qurbanlar burada yandırılırmış. Bununla yanaşı Həsənlidə tapılmış qızıl camın yuxarı registrindəki təsvirlər allahlara sitayiş və qurbanlar verilməsini xüsusilə parlaq şəkildə nümayiş etdirir. Camın üzərindəki ayinlərin ibadət zamanı istifadə olunduğu göstərilir. İranlı arxeoloq Tağı Asəf və Pensilvaniya muzeyinin əməkdaşı Robert Dayson qabın üzərindəki təsvirlərə əsaslanaraq onun təxminən e.ə IX əsrdə yarandığını bildirirlər. Cam üzərində günəş allahını təmsil edən qanadlı tac qoymuş şəxs assurların allahlarını, aslanabənzər şəkillər hit və hunların ilahilərini xatırladır. Qızıl camın üzərində təsvir edilmiş, öküz qoşulu cəng arabasını sürən Allahı "Tıyan", hərb Allahı ilə eyniləşdirmək olar ki, onun da atributu öküzdür. Bu allah assurların Allahı Adada, urartuların Allahı Teyşebaya, hurilərin Allahı Teşşoba (Teşuba) uyğundur.

Mannanın qədim əhalisinin etiqadlarında dirilik ağacına sitayiş böyük yer tutur. Bu Həsənlinin, Mərlikin, Ziviyənin qədim əhalisinin incəsənətində də öz əksini tapmışdır. Dirilik ağacına sitayiş Yaxın Şərqdə geniş yayılmış motivdir. Dirilik ağacı təbiətin ölməsi və dirilməsi ideyasını, qədim əhalinin əhyaya (dirilməyə) və axirətə inamını təcəssüm etdirirdi. Müvafiq dövrün qəbirləri də buna sübutdur. Arxeoloji qazıntılar zamanı tapılmış metal və sümüklərdə, möhürlərdə dirilik ağacının ətrafında ayaq üstə durmuş və yaxud diz çökmüş heyvanlar təsvir olunur. Həsənlidə tapılmış qablarda, Mərlikdə tapılmış möhürlərdə dirilik ağacının qabağında dayanan dağ keçisinin təsviri var. Ziviyədə aşkara çıxarılmış qızıl pektoralın yuxarı registrində dirilik ağacına bənzədilmiş ağac, onun yanlarında qabaq ayaqlarını qaldırmış dağ keçiləri, aşağı registrdə qanadlı öküzlər təsvir edilmişdir. [Şəkil;1]

Cənubi Azərbaycanda Saqqız yaxınlığında Ziviyə kəndinin sakinləri tərəfindən dəfinə aşkarlanmışdı. R. Girşman hesab edir ki, bu yeri tutan Skiflər ona öz adlarını vermiş və Saqqız sözü saka sözündən törəmişdir. Materiallar göstərir ki, Urmiya yanı vilayətlərdə allahlar panteonu varmış, əhali allahlara sitayiş edirmiş, məbədlərdə ibadət olunur, qurbanlar kəsilir, dini ayinlər icra edilirmiş. Urmiya gölü hövzəsi əhalisinin özgün mənəvi mədəniyyəti dini örtükdə müəyyən dərəcədə öz əksini tapmışdır.

İbtidai icma və müxtəlif erkən dövlət qurumları zamanında insanlar nəyi qüvvətli hesab edirlərsə onu ilahiləşdirirdilər. Artıq uzun müddət keçdikdən sonra qədim dövrdə yaşayan insanlarda mədəniləşmə gedirdi: istər onların davranışında, istərsə də dini dünya görüşü baxımından, bu özünü Midiya–Atropatena mifoloji–dini təfəkkürünün əsaslarını əks etdirən “Avesta” mifik inamları, azərbaycanlıların ən qədim mədəni, dini–fəlsəfi abidəsində göstərirdi.

Midiya Azərbaycan türklərinin etnogenezində iştirak edən xalqlardan biri olan madaylar tərəfindən qurulmuş ilk imperiyadır. Ondan əvvəl Azərbaycan ərazisində yaranmış Manna dövlətinin tarixi, etnik və mədəni varisi hesab edilir. Midiya ölkəsi indiki İran dövlətinin ərazisində yerləşmişdir. Herodotun yazdığına görə Midiyada busilər, paretokenlər, struxatlar, arizantlar, budilər və maqlar kimi əlavə altı qəbilə yaşayırdı. Onların içərisində Maq Midiya qəbiləsi hakim mövqeyə

malik idi. Hər qəbilənin öz padşahı var idi. E.ə IX əsrdə qəbilələrin Midiya ittifaqı yarandı. Midiya (Maday, Matay, Amaday) adı da bu dövrdə yad edilmişdir. Herodot eyni zamanda qeyd edir ki, Midiyanın adı qədim yunan əfsanəsi olan "Yason və Arqonavatlar" haqqında əfsanədə Kolxida hökmdarı Eetin cadugər qızı Medeanın adından götürülmüşdür. Qədim hindlilər, parslar, skiflər, albanlar, qədim taciklər kimi midiyalılar da ariya xalqlarından hesab edilirdi. Midiyalılar İran dilli xalqlar qrupuna daxil idilər. Q. Qeybullayev isə yazır; "Maday (Matay) əvvəlcə türk mənşəli müstəqil bir böyük tayfanın, sonra tayfa ittifaqının və e. ə 673–cü ildən dövlətin və ölkənin adıdır". Manna dövləti qədim azərbaycanlıların ilk böyük padşahlığı idi. Manna e.ə VII əsrdə böyük Midiya dövlətinin tərkibinə daxil olmuşdur. Midiyanın paytaxtı Ekbatan, indiki Həmədan şəhəri idi.

Midiyanın özünəməxsus mədəniyyəti olmuşdur. Midiya şəhərlərində arxeoloji qazıntılar aparılmadığından Midiyanın yazılı abidələri hələlik əldə edilməmişdir. Qısa müddət mövcud olmağına baxmayaraq Midiya çoxlu tayfa xalqlara təsir etmişdi. Midiyanın maddi mədəniyyəti haqqında Mada qalalarının əks olunduğu Assur təsvirləri, Ekbatan ərazisində, Baba–Cantəpədə və Nuşi–Cantəpədə arxeoloji qazıntılar nəticəsində əldə olunmuş dəlillər əsasında mühakimə yürütmək mümkün olmuşdur. Mada mədəniyyətinin daha erkən abidələri Luristanda, məşhur "Luristan tuncları" ərazisində aşkara çıxarılmışdır.

Baba–Cantəpə adlanan iri məskən, Mada tikinti sənətinin, memarlığının maraqlı abidələrindən biridir. Bu məskən Luristanın Pi–e–Kuh adlı yerində bir neçə təpədə yerləşmişdir. Bu məskən çoxtəbəqəlidir, II və III dəmir dövrlərini əhatə edir. Ərazinin ilkin təbəqələri Madaya qədərki dövrə aiddir.

Nuşi–Cantəpə kompleksi geniş vadi üzərində yerləşir və iki məbəddən, "qalaçadan" və "sütunlu zaldan" ibarətdir. Memarlıq baxımından çox mürəkkəb olan mərkəzi od məbədi daha maraqlıdır. Bu qüllədə "müqəddəs" od alovlanırdı. Bu isə güman olunurdu ki, Midiyada zərdüştiliyin bütün tələblərinə cavab verən ilk mazdaistik obyekt idi.

Midiyalıların dini təsəvvür sistemləri onların ideologiyasının xarakterik amili kimi diqqəti cəlb edir. Din Midiya tarixində üç əsas mərhələ keçmişdir. İlk dövrdə bütün Mada tayfaları üçün məcburi olan vahid dini sistem olmamışdır.

Birinci mərhələ e.ə VII əsrdən əvvəlki dövrü, ikinci mərhələ e.ə VII əsrdən sonrakı dövrü və e.ə VI–V əsrləri əhatə edir. Üçüncü mərhələ isə e.ə V əsrin II yarısından başlamışdır. Birinci dövrdə kutilərin, lullubilərin, kassilərin, çox qədim şumerlərin dünya görüşü ilə bağlı olan dini təsəvvürlər hökm sürməkdə idi. Hətta babilərin də dini etiqadları Midiya mədəniyyətinə təsir göstərmişdir. Midiyanın bir rayonunda Babilistanın, Şumerlərdən gəlmə xeyir–bərəkət və sevgi ilahəsi olan İştarın məbədi aşkarlanmışdır. Assurlar Midiyaya hücum edərkən Ekbatanda "Babil qalasına" və Babilistan tanrısı Mardukun madaylar arasında kök salmış dini əqidəsinə rast gəlmişdilər. E.ə IX–VIII əsrlərdə Midiya tayfaları Ahura ("hökmdar", "ruh"), Mazdanın ("çox ağıllı", "yaddaşlı") – xeyirxah, xilaskar əqidəsində pərəstiş edir və onların dini politeizmə, tayfa tanrılarına (devalara) əsaslanırdı. Midiyalıların "ilan" toteminə pərəstiş etməsi madayların "ilandan doğulmuş" hesab edilməsi də bu dövrün məhsulu idi. Lakin dini təsəvvürlərin ikinci dövründə artıq monoteist "Zərdüşt" tərəfdarı olmuş madaylar ilan və başqa totemlərə olan keçmiş etiqadın qatı düşmənlərinə çevrildilər.

Odun insan həyatında əvəzsiz xidməti–onların soyuqdan, yırtıcı heyvanlardan qorunması, qaranlıqda yol göstərən olması insanların ona ilahi bir varlıq kimi səcdə etməsinə lüzum oldu. Atəşpərəstlər təkcə odu yox, həm də günəşi, ayı, ulduzları müqəddəs varlıq kimi qəbul edir, kütləvi surətdə buna qurbanlar verirdilər. Buna görə də atəşpərəstləri həm də "səmavi adamlar" adlandırırdılar. Bu dinin yaranması e.ə X əsrə aid edilir. İnsanlar odu qoruyur, ona sitayiş edirdilər. Hər bir kənddə bir ev olardı ki, orada od saxlanardı. Bu odu söndürmək və külünü atmaq olmazdı. Urmiya gölünün ətrafında atəşpərəstlərin məbədləri yerləşirdi ki, bu yer "Aturpatakan" ("Atəş mühafizəçiləri ölkəsi") adlanırdı. Zərdüştilik dini Zərdüşt peyğəmbərin adı ilə bağlıdır. Onun adının Spitama olduğu və e.ə 589–512-ci illərdə Cənubi Azərbaycanda yaşadığı ehtimal olunur. Antik və Orta əsr tarixçiləri Zərdüştin adını müxtəlif formalarda işlətmişlər; ("Avesta" da Zaratuştra, Zoroastr, Zaratuşt, Zarduşt, Oroast). Midiyada peyğəmbər kimi qəbul edilməyən Spitama 10 ildən artıq tək–tənha mağarada yaşadıqdan sonra Orta Asiya və Yaxın Şərqə səyahətə çıxır. Baktriya ölkəsinin hökmdarı Kavi

Viştaspanın sarayına gələn peyğəmbər ağır sınaqlardan məharətlə çıxır. Yeni dini hökmdarda qəbul edir və beləliklə Yaxın Şərq, o cümlədən Midiya da atəşpərəst olur. Zərdüşt bəşər tarixində təkallahlıq ideyasının təbliğatçılarından olub. O, çoxallahlığı rəd edərək xeyir Allahı Hörmüzü (latınca; Ahura Məzda “Hifz edən hökmdar”) özünü yeganə allah elan edib. Hazırda zərdüştlər Hindistanda (parslar), İranda (gəbrlər), İraqda (kiçik icma halında), Bakının Suraxanı bölgəsində və bəzi yerlərdə yaşayırlar. Zərdüştün fəlsəfəsi təkcə onun ardıcıllarına deyil, hətta antik dövrün bir çox aliminə; Platona, Aristotelə, Hermippə və başqalarına güclü təsir göstərib. Atəşpərəstlər hətta orta əsrlərdə də Zərdüştü İsaya qədər olan bütün peyğəmbərlərdən daha ləyaqətlisi hesab edirdilər. [Şəkil;2]

Müqəddəs “Avesta” kitabını Zərdüştiliyin ən böyük tarixi abidəsi adlandırırlar. Avestaşünaslar bu sözün mənasını tam açmasalar da onun qanun hesab edirlər. Bu kitabdakı “Qatlar” (Nəğmələr) Zərdüştün fərdi yaradıcılıq məhsulu kimi qiymətləndirilir. Avesta haqqında məlumatlar Yunan, Roma, Azərbaycan, İran və.s mənbələrdə verilir. “Avesta” Avropaya XVIII əsrdən məlumdur. 1771–ci ildə fransız tədqiqatçısı Anketil dü–Perron Avestanı fransız dilinə tərcümə edir və abidə bütün Avropaya yayılır. Bu tərcümədən F. Nitşe, V. Cankson, Y. Herzfeld və b. geniş istifadə edərək tədqiqat işləri aparmışlar. Bu gün bəzi tədqiqatçılar “Avesta”-nı İrana, böyük əksəriyyəti isə onun Azərbaycanla əlaqələndirirlər.

Avesta ilk əvvəl 21 kitabdan ibarət olub və hər kitabın ayrıca adı varmış. Makedoniyalı İsgəndər Azərbaycanı işğal edərkən Avestanın tibbi, fəlsəfi və astroloji hissələrini yunan dilinə tərcümə etdirib, qızılla yazılmış 12 min lövhəni isə (inək gönü) yandırıb. Ərəblər dövründə isə nəinki Avesta yandırıldı, o cümlədən atəşpərəstlərin məbədləri dağıdıldı, bunun nəticəsi olaraq atəşpərəstlər ölkəni tərk edərək Hindistanın Surat, Bombey, Mədrəsə və b. şəhərlərinə köç etdilər.

Avestanın 21 kitabından zəmanəmizə cəmi dörd kitab gəlib çıxıb. 1). Vendidad (Videval)–Divlər əlehinə qanun, 2). Vispered – “Hərşeyin ağası”, 3). Yasna – “səcdə etmə, dua etmə”, 4). Yaşt (Yaştiha) –pərəstiş, hörmət etmə. Avestanın bu hissələri bizə pərakəndə şəkildə gəlib çatıb.[Şəkil;3] Dua mətnlərində

təşkil olunmuş “Kiçik Avesta” isə Hindistanda yaşayan atəşpərəstlər tərəfindən orta əsrlərdə yazıya alınıb. Atəşpərəstlər öz inanclarını eyni zamanda maddi mədəniyyət nümunələri sayılan abidələrdə qoruyub saxlayırdılar. Bu gün Azərbaycanda Bakı şəhərinin müxtəlif ərazilərində atəşpərəstlərin ibadətgahlarına rast gəlmək mümkündür. Odlar yurdu adlanan Bakının özündə üç atəşgah olub. Pirallahıda, Şubanı dağında olub ki, təəssüflər olsun xalqın mənəviyyatına, tarixinə laqeyid yanaşam “mömin müsəlmanlar” tərəfindən bu abidə XIX əsrin sonlarında məhv edilmişdir. Bu gün Suraxanıda dövrümüzə qədər gəlib çatmış “Atəşgahı” xüsusi ilə vurğulamaq yerinə düşərdi. [Şəkil;4] Məbədin tarixi köklərinin qədim dövrə dayandığını söyləyirlər. Atəşgahın memarlıq həllinə görə Midiya dövründən Azərbaycanda yayılmış od səcdəgahlarının tikintisi ilə bağlı olan ənənələri əks etdirir. Əsası qədim dövrdə qoyulsa da indiki binanın 1713–cü ildə Hindistanın Multan vilayətindən gəlmiş tacir və zəvvarlar tərəfindən tikilməsi ehtimal olunur. Məbədin sanskrit və hind dillərindəki yazılar onun hind mənşəli olduğunu sübut edir. Məbədin divarlarında iyirmi kitabə var ki, onlardan biri fars, qalanları isə hind dilində yazılmışdı. Bakının müxtəlif hissələrində qazın üzə çıxması, bu ibadətgahların tikilməsi ilə nəticələnmişdi. İçəri şəhərdəki Cümə məscidinin atəşpərəst zərdüştlərinin məbədgahının yerində tikilməsi haqqında rəvayət Bakı əhalisi arasında indiyədək yaşamaqdadır. Ərəblərin Azərbaycanı istilasından sonra ibadətgah baxımsızlıqdan uçub dağıldı. Oktyabr inqilabından sonra Suraxanı məbədi kerosin zavoduna çevrildi. Bəzi mənbələrdə qeyd olunur ki, Mendeleyevin bu ərazidə apardığı tədqiqat işinin nəticəsi olaraq yer səthindən təbii şəkildə çıxan qazın sönməsi ilə nəticələnmişdi. Abidə də baxımsızlıq hələ də qalmaqda idi. XX əsrin 70–ci illərində İndira Qandi müqəddəs yeri ziyarət etmək arzusunda olduğunu bildirdikdə, yerli rəhbərlik məbədin ərazisini zir–zibildən təmizlətdirdi, məbəd təmir edildi və məbədə boru ilə qaz xətti çəkildi. İndira Qandi səfərindən çoxda razı qalmadı. Müasir günümüzdə də Hindistandan, İrandan və b. ərazilərdə yaşayan atəşpərəstlər “Atəşgahı” ziyarət edirlər. Bu isə Azərbaycana turist axınının güclənməsini göstərir. Məhz tarixi və mədəni abidələrimizə göstərdiyimiz qayğının nəticəsi olaraq tarixi–mədəni turizmimiz daha da inkişaf edəcəkdir.

Bakı şəhərinin simvolu Qız Qalasının tarixi haqqında tədqiqatçılar arasında fikir ayrılıqları ortaya çıxmışdır. Müasir dövrün tədqiqatçıları "Qız Qalası"nın mərtəbələrinin sayını, onun hündürlüyündəki rəqəmlərin əlaqəsini, "Qız Qalası"nın müsəlmanların müqəddəs torpağı sayılan "Məkkə" şəhərinə istiqamətləndirilməsini və s. bu kimi iddiaları islamla əlaqələndirirlər. Hətta abidənin XII əsrdə tikilməsini də mübahisəsiz qəbul edirdik. Lakin diqqət yetirsək burada əlaqələndirmələr tam üst–üstə düşmür. Çünki islamın hökmranlıq etdiyi bir dövrdə atəşpərəstliyin ən möhtəşəm qalası tikilə bilməzdi. Bəzi araşdırmalar Qız qalası üzərində bir vaxtlar 10–15 metr hündürlüyündə alov yanırmış. Bu gün bir çoxlarımız abidənin atəşpərəstlərin qibləgahı olduğunu bilmirik. Son zamanlar Bərdə və Naxçıvanda bu kimi abidələrin xarabalıqları aşkar edilib. Midiyada yaranmasına baxmayaraq atəşpərəstlik geniş əraziyə yayılmağa başladı. Qədim Manna ərazisində yaranmış yeni Midiya dövlətinə həm Atropatena, həm də Kiçik Midiya, Yuxarı Midiya deyilirdi. Atropatenada da qədim Midiya ənənələri gözlənilirdi, burada İran dili və maqların zərdüşt dini qüvvətli təsirə malik idi.

Adurbadaqan, Atropat Midiyası kimi səslənən Atropatena tarixi Azərbaycan torpaqlarının bir hissəsində mövcud olmuşdu. Atropatenanın ərazisinə Cənubi Azərbaycan vilayətlərinin, indiki Azərbaycan respublikasının və İran Kürdüstanının bəzi əraziləri daxil idi. Keçmiş Əhməni satrapı, əslən madalı Atropat e.ə IV əsrin 20–ci illərinin sonunda yeni dövlətin əsasını qoydu. Bəzi qaynaqlarda verilən məlumatlara görə əvvəlcə bu dövlət "Mada" sonralar isə dövlətin əsasını qoymuş Atropaten adı ilə adlandırılmışdı. Bir çox tədqiqatçılara görə indiki Azərbaycan adı da Atropatenanın adından götürülmüşdür. Atropatenanın adı Pəhləvi dilli mənbələrdə "Atur-patakan", "Atəş qoruyan" şəklində qeyd edilirdi. Latın və yunan dilli mənbələrdə ölkəni Atropat Midiyası və Kiçik Midiya adlandırırdılar. Ərəblərin bu əraziləri fəth etməsindən sonra Atropatenanın adı erkən ərəbdilli mənbələrdə "Adabarqan", "Azərbaycan" kimi işlədilmişdi. Atropatenanın iki yay və qış paytaxtları olmuşdu. Dövlətin yay paytaxtı Vera–indiki Marağa şəhəri, qış paytaxtı isə farsdilli mənbələrdə "Qazaka", ermənidilli mənbələrdə "Qandzak", ərəbdilli mənbələrin isə "Şiz" adlandırdıqları

Gəncə şəhəri olmuşdur. İran və Almaniya arxeoloqlarının Təxti–Süleyman ərazisində apardıqları arxeoloji qazıntılar zamanı Qazaka şəhərinin qalıqları və möhtəşəm "Azərgüşnap məbəd" inin qalıqları aşkarlanmışdır. Ellinizm dövründə Atropatenada yunan dili geniş yayılmışdır. Cənubi Azərbaycan tayfa və xalqlarının kuti, lullubi, mannalı və b. madalılarla qaynayıb–qarışması nəticəsində yeni etnos atropatenalılar üstünlük təşkil etməyə başladı. Mənbələrdə adları çəkilən tayfalardan biri də Qafqaz albanlarıdır. Eyni zamanda Atropatenada tatlar, yəhudilər, gurgonlar və parslar yaşayırdılar.

Pəhləvi dilində yazılmış "Şəhristanhaye İran" əsərində deyilir ki, Aturpatakın patkustına Gəncək (Qazaka), Frasyak (Fraaspa), Turkert (Favreş) şatiristanları daxildirlər. Həmin mənbədə qeyd edilir ki, Gəncək (Qazaka) şəhəri turanlı Frasiyak (sonrakı mənbələrdə Əfrasiyab) tərəfindən bina edilmişdir. [Bakı – 1993].

Atropatenanın maddi mədəniyyət abidələri indiyədək, çox geniş araşdırılmamış və tədqiq edilməmişdi. Almaniya arxeologiya institutunun Astara–Ərdəbil bölgəsində apardığı kəşfiyyat işləri nəticəsində Parfiya dövründə tikilmiş qalalar barəsində təsəvvür yarandı. Bu işlərin nəticəsi olaraq: "Qaleyi - Sasan", "Qaleyi–Növduz" Ərdəbildən 30 km şimal–qərbdə olan "Qala" qeydə alınmışdır. İctimai təyinatlı binaların memarlıq baxımından bəzədilməsində daş xüsusi ilə əhəngdaşı geniş surətdə tətbiq edilirdi. Misal üçün "Qaleyi - Zöhhac" da olan sarayda xeyli sayda bəzək detalları qeydə alınmışdır.

"Zöhhak" qalası Cənubi Azərbaycanda Marağa–Miyanə yolunun kənarında yerləşən antik və erkən orta əsrlər dövrünə aid qala–şəhərdir. Qala Əhmənilərə qədər ki, dövrdən islam zamanınadək müxtəlif vaxtlarda tikilmiş qurğuları özündə ehtiva edir. Şimaldakı təpə qədim şəhər yeri həyatının Parfiya dövrünə aiddir. İkinci təpədə sasanilərin hakimiyyəti dövründə tikilmiş qala qurğuları vardır. Aparılmış tədqiqat işlərinin nəticəsi olaraq kompleksin saray xarakteri daşıdığı ortaya çıxmışdır. Qaleyi–Zöhhak qədim şəhər yerinin daha mühüm və yaxşı hifz edilmiş qurğusu pavilyondur. Pavilyon saray kompleksindən cənub–qərbdə yerləşir və kompleksdən terrasla ayrılmışdır. Cənub–şərq tərəfdən pavilyon bağlıdır və hesab edilir ki, bu cəhət pavilyonun atəşpərəstlik məbədi və yaxud çahartaq kimi

ibadət obyekti olduğu fikrini təkzib edir. Qalanın daxili və xarici divarları üzərində boya təsvirlərinin izləri olan suvaq qalmışdır. Həmin təsvirlər qadın başçıqlarının əks olunduğu kesson, meandr ornamenti, relyef şəklində qıvrımşəkilli bəzək rəsmlərindən və s. ibarətdir. Pavilyonda eyni zamanda ön Asiya və Roma memarlıq izlərinə də rast gəlmək olar.

Çox güman ki, yalnız iki abidə Mada Atropatena ərazisində mövcud olmuş memarlıq prinsiplərinin az və ya çox dərəcədə tam mənzərəsini verir; mülkü xarakterli yaşayış yerinin nümunəsi kimi "Qaleyi-Zöhhak" və məbəd qurğusu güman edilən, Təkab yaxınlığında yerləşən "Kerefto" (Karafto, Karaftu) qaya kompleksidir.

Kerefto məbədi (və ya Herakl məbədi) – Cənubi Azərbaycan ərazisində Qərbi Azərbaycan və Kürdüstan əyalətinin Kerefto dağlarında həm özünün memarlığı, həm də otaqlardan birinə giriş üzərində həkk olunmuş yunan apotropeik yazısı nəzəri cəlb edən erkən Atropaten dövrünə aid qaya məbəd kompleksi mətnində deyilir; "Burada Herakl yaşayır, hər cür pislikdən uzaq olsun". Kereftodakı bu mağara tipli tikilinin funksional təyinatına dair ədəbiyyatda iki nöqteyi–nəzər irəli sürülmüşdür. Tədqiqatçıların isə əksinə qayalıqlarda oyulmuş otaqlar kompleksinin mülki səciyyə daşıdığını iddia edirlər. Onlar hesab edirlər ki, bu kompleks yunan hərbi hissəsinin yerləşdiyi obyekt olmuşdur. Kerefto kimi bir yerdə sitayiş obyektinin əsasının qoyulması fikri həqiqətə daha uyğundur. Kompleksin binalarından birində su mənbəyinin olması həmin yerin müəyyən qədər "müqəddəs" olduğu haqqındakı fikrə sövq edir. Güman olunur ki, burada "Şərq Herakılı" na sitayişdən başqa "səma suyu" ilahəsi hesab edilmiş "Anahitə" də sitayiş vardı. Bəzi müəlliflər Kerefdodakı məbədi "Fasitin" xatırladığı Sanbulos dağında yerləşən səcdəgahla eyniləşdirirlər. Bu dağda dincələn Heraklın təsviri, Qotarzın Meherdot üzərindəki qələbəsini təsvir edən relyef, Herakl Kallinikə həsr edilmiş yazı vardır. Kereftodakı yazının mətni belə qənaətə gəlməyə sövq edir ki, Mada Atropatenada sinkretik yunan–atropaten tanrısına sitayişin kifayət qədər erkən təzahürləri mövcud olmuşdur.

Artıq e.ə I minilliyin ilk əsrlərində Qərbi Madada, xüsusi ilə gələcək Kiçik və yaxud Atropat Madası ərazisində müxtəlif mazdaist təlimlər yayılmışdı. Burada

və ona qonşu olan ərazilərdə təxminən həmin minilliyin başlanğıcında gənc Avesta inamları ocaqlarının mövcud olduğunu ehtimal etmək olar. Bizə o da məlumdur ki, artıq Atropatena dövlətinin mövcudluğunun ilk onilliklərində bizi maraqlandıran ərazidə Şərqin digər Hellinist dövlətlərində olduğu kimi, yunan–makedon işğalçıları tərəfindən gətirilmiş müxtəlif yunan ayinləri, xüsusilə Herakla sitayiş də yayılmışdı. Avestanın bizə gəlib çatmış nüsxəsi sasanilər dövründə dövlət dini kimi elan olunmuş Avesta məcmuəsinin bir hissəsidir. Sasanilər sülaləsinin hakimiyyəti dövründə Avesta bir neçə dəfə III, IV hətta VI və VII əsrlərdə kodifkasiya edilmişdir. Öz intibah dövrünü yaşayan Avestanın müqəddəs mətnlərinin daha dəqiq, incə çalarlarını ifadə edən yazılışı üçün pəhləvi əlifbası ("arami" yazısı) əsasında xeyli miqdarda işarələri olan xüsusi şrift yaradılmışdı. Avestanın kononlaşdırılmış mətni pəhləvi dilinə tərcümə və şərhlə təchiz edilmişdi. Atropatenanın paytaxtı Qazaka şəhəri atəşpərəstliyin mərkəzi hesab edilirdi. Bunu Qazakada tapılmış atəşpərəst məbədləri sübuta yetirir. Yeni yaranmış dövlətlərin ərazilərində tapılmış müxtəlif dini abidələr artıq ilkin orta əsrlərdə insanların politeizmdən (çoxallahlı), monoteizmə (təkallahlı) keçidini bir daha sübut edir.

Adurbadaqanda xristianlığın yaranmasını göstərmək olar. Atropatenada xristianlıq haqqında ilk yazılı qeyd 420–ci ildə katolikos Yabalahın dövründə (415 – 419) çağırılmış sinodun aktlarında qorunub saxlanılmışdır. Lakin bu faktın özü xristianlığın burada mövcud olan çoxdankı ənənələri haqqında ehtimal yürütmək imkanı verir. Beləki, yeni dinin yayılması üçün zəmin olmayan yerdə yepiskopluq yarana bilməzdi. Albaniyada eləcə də Gürcüstan və Ermənistan ərazisində olduğu kimi Adurbadaqanda da xristian kilsəsi feodal münasibətlərinin yarandığı dövrdə çıxmışdır. Azərbaycanda xristianlıq haqqında ən erkən məlumat verən V əsrin əvvəllərinə dair sinod sənədlərində katolikos Mar Yabalahaya dini cəhətdən tabe olan vilayətlər sırasında Arron, Azərbaycan, İberiya və Ermənistanın da adı var. Mənbələr V–VII əsrlərdə Adurbadaqanda yepiskopluq etmiş bir neçə kilsə xadiminin adlarını çəkir. "Qanzakın və Adurbadaqanın" yepiskopu Osiyi qeyd etmək olar. Azərbaycanda xristianlığın geniş kök salması Qafqaz Albaniyasının dövrünə təsadüf edilir.

Azərbaycanda əsasları ilkin dini inanclara dayanan, bu gün Abşeronu öz gözəlliyi ilə bəzəyən məbədlər, qalalar, dini inanc yerləri mədəniyyətimizin şöhrətini daha da artırır. Qədim dini inancları özlərində ehtiva edən və Azərbaycandan kənarda yaşayanlar, bu gün həmin abidələri özlərinin dini ziyarətgahlarına çeviriblər. Bu isə dini turizm anlayışını daha da inkişaf etməsinə öz töhfəsini verir.

## I.2. Bakının şəhərsalma və memarlıq tarixi.

Bakı şəhəri Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində, külək və fırtınalardan yaxşı qorunan buxtada yerləşmişdir. Köhnə Bakı qalası amfiteatr şəklində Bakı platosunun cənub yamacında yerləşir. Onun şimal hissəsi qumlu sahillər, kəndlər, bağ yerləridir. Şimal sahillərinin qarşısında Abşeron arxipelaqına daxil olan Pirallahı, Çilov cənub sahillərinin qarşısında isə Böyük Zirə, Daş Zirə yaxud təzə Zirə adaları yerləşir.

Bakı təkcə Azərbaycanın deyil, eləcə də bütün Yaxın Şərqin qədim şəhərlərindən, iqtisadi və mədəni mərkəzlərindəndir. Bakının yaşayış məntəqəsi və şəhər kimi nə vaxt meydana gəlməsi onun arxeoloji baxımından az öyrənilməsi və erkən tarixinə dair mənbələrin kasadlığı üzündən indiyədək dəqiqləşdirilməmişdir. 1826–cı ildə Bakıda olmuş görkəmli səyyah Zeynalabdin Şirvani yazırdı; Bakını “Badkubə” də adlandırırdılar.[16,səh 9]. Bakı şəhərinin hansı əsrdə salınması dəqiq

müəyyən edilməmişdir. Bakıda və ətraf kəndlərində arxeoloqların apardığı qazıntılar nəticəsində tapılan tarixi abidələr, saxsı qablar, daş sandıqçalarda dəfn edilmiş sümüklər, sikkələr və s. məlum olur ki, onun yaranma tarixi eramızdan əvvəlki əsrlərə gedib çıxır. Azərbaycanın bir sıra şəhərlərinin salınmasını Sasani şahlarının adlarına çıxan ərəb və fars coğrafiyaşünasları Bakını xatırlayarkən onun meydana gəlməsi haqqında heç nə demirlər. Lakin məlumdur ki, Sasani hökmdarları, əksər hallarda şəhərlər salmır, şimaldan onların torpaqlarına basqın edən xəzərlərin və digər xalqların hücum təhlükəsinin qarşısını almaq üçün dövlətlərin şimal sərhədindəki mövcud yaşayış məskəni və şəhərləri qala divarları və bürclərlə möhkəmləndirirdilər. Sonrakı müəlliflər XVII əsr səyyahı Övliya Çələbi heç bir mənbəyə istinad etmədən Bakı şəhərinin təməlinin qoyulmasını Əhməni şahı Daranın, XIX əsrin əvvəli Azərbaycan səyyahı Zeynalabdin Şirvani isə Sasani şahı Ənuşirəvanın (VI əsr) adları ilə bağlamışdır. [16,səh 27]. Arxeoloji tədqiqatlar və qazıntılar Abşeron yarımadasının yaxınlığındakı ərazilərin – Qobustanın çox qədim zamanlardan – daş dövründən qədim insan tərəfindən məskunlaşdığını göstərmişdir. Bakının tarixinin qədimliyinin aydınlaşdırılmasında köhnə Bakı qalasında – İçərişəhərdə və onun hüdudlarından kənarda aşkar edilmiş arxeoloji materialların mühüm əhəmiyyəti var. Q. Aslanovun Bayılda aşkara çıxardığı tunc dövrünə aid qaya rəsmləri, İçərişəhər ərazisində tapılmış tunc balıq fiquru, Bakı yüksəkliyinin zirvəsində Şirvanşahlar sarayındakı qayada Qobustandakı kasavarı oyuqlara bənzər oyuqlar və içərisinə saxsı qablar qoyulmuş qəbirlər olan islamaqədərki çoxtəbəqəli qəbiristanlıq Bakı ərazisində tunc və antik dövrlərdə yaşayış məskəninin mövcud olduğunu göstərir. İçərişəhərdə antik dövrün böyük şəhər binalarının sütun bazalarına oxşayan iki altlığın tapılması köhnə Bakı qalasını antik dövr şəhər hesab etməyə və onun yaşını iki min ildən çox müəyyənləşdirməyə imkan verir. Bakı Dərbənd keçidindən keçən köçəri şimal tayfalarının tez – tez baş verən basqınları ilə əlaqədar qala divarları da xəndəklə əhatə edilən qədim yaşayış məskənlərində meydana gələn Azərbaycan şəhərləri tipinə mənsub olmuşdur. Sara Aşurbəylinin Bakı şəhərinin tarixi ilə bağlı apardığı tədqiqatların nəticəsində; yazılı mənbələrdən başqa, əlimizdə həm arxeoloji, həm

də numizmatikaya aid maddi mədəniyyət abidələrinə məxsus məlumatlar vardır. VIII əsrə aid Abbasi sikkəsi, V – VII əsrlərə aid üç Sasani sikkələri dəfinəsi göstərilə bilər. Belə nəticəyə gəlmək olar ki, Bakının antik şəhər kimi yaşı iki min ildən çoxdur. Bakı adının haradan gəldiyini müəyyən etmək üçün bu bölgənin qədim etnik qatlarını və qədim əhalisinin dilini aşkara çıxarmaq zəruridir. Mənbələrin verdiyi məlumata görə e.ə I minilliyin sonu və eramızın ilk əsrlərində, Abşeron yarımadasında öz hökmdarlıqları olan skiflər – massagetlər (maskutlar) yaşamışlar. Həmin hökmdarlığın başında Parfiya Arşakilərindən olan hakimlər durmuşlar.

Məşqətə, indiki Maştağa kəndinin adı massagetlərlə bağlıdır. Abşerona aid toponimlər arasında ən çətin izah olunan və maraqlısı Bakı şəhərinin adıdır. Bakı şəhərinin adına ilk dəfə V – VIII əsr mənbələrində Baqavan, Atli (Atşi), Baqavan və Atşi (Atəşi) – Baqavan toponimi Hind – Avropa dillərinin bir çoxunda "Allah", günəş mənalarını bildirən "baqa" kökündən ibarətdir. [7,səh 31]. "Baqa" sözünə böyük, ilahə, Allah mənalarında qədim türk dillərində rast gəlinir. "Baqavan" toponimi "Baqa" yaxud "Baq" söz kökündən və van şəkilçisindən ibarətdir. Azərbaycan, Ermənistan, İran və digər şərq ölkələrinin bir çox şəhər və yer adlarında təsadüf olunan "van" şəkilçisi böyük mühüm şəhər mənası bildirir. Buraya Şirvan, Naxçıvan, Həftəvan, İrəvan, Sarvan və s. adları misal çəkmək olar. Gürcü salnaməsi "Kartlis Tsaxovreba" da "Baquan" adı Şirvandakı Bakı ilə eyniləşdirilir. "Kartlis Tsaxovreba" da gürcü hökmdarı IV Georgio Laşanın 1222 – ci ildə bacısı Rusuduanın Şirvanşahla nikahında iştirak etmək üçün Şirvanşahların iqamətgahı Baqavana gəldiyi xəbər verilir. [7, səh 32]. XIX əsr İran mənbələrində Məhəmmədhəsən xan Etimad Sasanilər dövründə "Dəryayı – Akufdə" adlandırılan Xəzər dənizi haqqında məlumatına istinad edərək Akufdəni Bakının qədim adı sayır. Bu məlumat özünün təsdiqini XVII əsrdə far mənbələrinə əsasən tərtib edilmiş "Bürhane – qate" lüğətində tapmışdır.

Abşeronda yer adlarının törədiyi bəzi tayfalar atəşpərəst idilər və onların burada öz məbədləri, səcdəgahları olmuşdur. Bunu Atəşi – Baqavan adı da sübut edir. Bəzi mənbələrdən verilən məlumata görə, Bakı yaxınlığında Bibiheybət

yüksəkliyində sonralar islamiyyət dövründə, pirə çevrilmiş atəşpərəstlik məbədi mövcud olmuşdu. Bakı sakinləri arasında indiyədək belə bir rəvayət qalmaqdadır ki, İçərişəhərdəki "Cümə məscidi" və erməni kilsəsi qədim atəşpərəstlik məbədlərinin yerində tikilmişdir. **XVI – XVII** əsrlərdən etibarən və sonralar bir sıra yerli və fars mənbələrində "Bakı" nın qədim formasından fərqlənən yeni yazılış şəkli "Badkubə" meydana çıxır. "Badkubə" sözü fars dilində (bad – külək, kubə, kubidən – döymək sözündən) "külək döyən yer" deməkdir. Bu ad Bakının şimal küləklərinə (xəzri) məruz qalması ilə bağlı meydana gəlmişdir. Şəhərin çağdaş adına – Vasi, yaxud Vashi (Baku) XIII əsrdən etibarən Qərbi Avropa səyyahlarının əsərlərində rast gəlinir. XVII əsr İtalyan səyyahı Pyetro Della Valledə rast gəlinən Vahsüh (Bakuh) forması, B. Domun fikirincə mazarandaranca (bad – va) külək və (kuh) dağ sözlərindəndir. Rus mənbələrində Bakının adı "Baka" kimi yazılır. Qız Qalası yaxınlığındakı Cümə məscidi minarəsinin bünövrə daşındakı kitabədə Bakı sözü – Bakuyə şəklində çəkilir.

Ə. Hüseynzadə və İ. Abdullayevin Bakı sözünün "təpədə yaşayış məskəni" mənasını bildirməsi barədə L.Q. Lopatinskinin fərziyyəsinin təkrarı olan ehtimalları tənqidə dözmür, belə ki, Mahmud Kaşqarinin (XI əsr) qeyd etdiyi "Bəqu" – təpə sözü nə tələffüz, nə də yazılış baxımından X əsrin birinci yarısından etibarən ərəb – fars mənbələrindəki "Baku" sözünə uyğun gəlmir. "Baqu – Baku" sözü Azərbaycanda, İranda yaşayış yerləri təpə adlanmışdır; Təpə Giyan, Təpə Sialk, Təpə Hissar və s. bizə məlumdur. Bakı şəhərinin şəhər salma tarixi özündə qədimliklə, müasirliyin vəhdətini yaradır ki, bu da özünü müxtəlif zamanlarda inşa edilmiş tarixi abidələrdə təcəssüm etdirir. Şəhər salam tarixini qeyd edərkən müxtəlif sülalərin zamanında inşa etdirdikləri qalaları, karvansaraları xüsusi ilə vurğulamaq yerinə düşər. Bir zamanlar yaşayış və müdafiə xarakterli bu binalar indi ölkənin turizm baxımdan inkişafında xüsusi rola malikdir.

Tarixi və arxeoloji materiallar göstərir ki, Azərbaycanın bir çox şəhərləri kimi Bakı da antik dövrdə iqtisadi cəhətdən inkişaf etmiş və sıx əhaliyə malik olan iri yaşayış məntəqəsinin böyüməsi nəticəsində meydana gəlmişdir. Bakının kiçik yaşayış məntəqəsindən şəhərə çevrilməsində neft və duz kimi sərvətlərin olması

mühüm əhəmiyyət daşıyırdı. Bakı hələ qədim zamanlardan təkcə Cənubi Qafqazda deyil. Eləcə də Yaxın Şərqdə əhalinin sıx məskunlaşmış şəhərlərindən biri kimi tanınmışdır. Əlverişli iqlimi, təbii – coğrafi şəraiti, təbi sərvətlərin bolluğu, buradan keçən beynəlxalq əhəmiyyətli ticarət yolları bu şəhərin iqtisadi cəhətdən inkişafına və böyüməsinə kömək etmişdir. Eramızdan əvvəl yunan – roma astronomu və coğrafiyaşünası Klavdi Ptolomey "Coğrafiya" dərsliyi kitabında Albaniyanın ərazisində 29 şəhərin adını çəkərkən Bakını Baruka və ya Qaytara kimi göstərir [7,səh 25]. Bakının müqəddəs odlar diyarı kimi tanınması onun həyatında mühüm rol oynamışdır. Azərbaycanın müxtəlif vilayətlərində xristian, bütpərəstlik, atəşpərəstlik dinləri yayılmış və onların dini ibtidai yerləri – mərkəzləri olmuşdur.

Bakının şəhərsalma memarlığından danışarkən ilk öncə "İçərişəhər" tarixi memarlıq kompleksini düşünməmək olmur. İçərişəhər mahir memarların, sənətkarların peşəkarlığından söhbət açır, bizi ötən qərinələrə aparır. Dövrümüzə gəlib çatmış bu şəhərin dar, əyri – üyrü küçələrini, meydançalarını göz önünə gətirdikcə ötən yüzilliklərdə hakim olmuş şəhər həyatının zaman keçdikcə necə dəyişdiyini görürük. Onun divarları arasında sanki keçmişə qayıdaraq, o dövrün səsini duyuruq. "Mədəni qatlarda" şəhərsalma ənənələrini izlədikdə sənət eşqilə yaşayıb – yaradan insanların ürək çırpıntılarını eşidirik. İçərişəhərdə izdihamlı ticarət meydanları, küçələr və böyük məhəllələr meydana gəlmişdi. O, sözün əsl mənasında daxili məhəlli strukturlara malik olub hər şeydən əvvəl iqtisadi mərkəz kimi formalaşmışdı. Onun özünü idarəsi daxili və ətraf yaşayış məntəqələri sakinlərin məişət və təsərrüfat həyatında aparıcı rol oynayır, yaxın və uzaq yerlərlə sıx iqtisadi – mədəni əlaqə saxlayırdı. Bakının inkişaf etmiş şəhər səviyyəsinə yüksəlməsi üçün mühüm amillərdən biri də onun ölkənin sənətkarlıq mərkəzlərindən birinə çevrilməsi idi.[Şəkil;5]

Yüksək təpə üzərində amfiteatr formasında salınan şəhər aşağıdan dənizə baxır, yuxarı hissədən isə Qafqaz dağları ilə əhatə olunmuşdu. Üçqat qala divarları, Qız Qalası və digər fortifikasiya qurğuları ilə bərabər şəhər sanki bütövlükdə möhtəşəm müdafiə istehkamını xatırladırdı. Orta əsr şəhərləri kimi qala divarları

içində olan bütün binalar (şəhəristan) da taktiki və strateji baxımdan müdafiə istehkamını xatırladırdı. İçərişəhər tarixi memarlıq kompleksinə daxil olan abidələr, dünya, ölkə və yerli əhəmiyyətə malikdir.

Dünya əhəmiyyətli abidələrimizdən biri, Bakı şəhərinin simvolu hesab edilən Qız Qalasıdır. Qız Qalası Xəzər dənizinin kənarında dənizə doğru maili nəhəng bir qayanın üzərində silindrik bir formada tikilmişdir. Qalanın hündürlüyü şimal tərəfdən 31, cənubdan isə 28 metrdir. Qalanın daxili hissəsi 8 mərtəbəyə bölünür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdü. Qalaya yeganə giriş yolu onun qərb tərəfindən, yerin əvvəlki səthindən 2 metr hündürlükdə və 1.10 metr enində olan tağlı qapı yeridir. Mərtəbələr arası əlaqə yaratmaq yalnız tavanda olan dairəvi deşikdən nərdivan və ya ip vasitəsilə mümkündür. Qalanın qapısı da keçmişdə bir neçə qatdan ibarət olmuşdur. Qalanın cənub və cənub şərq tərəflərini, xüsusilə dənizi nəzarət altında saxlamaq üçün mazğallar düzəldilmişdir. Mazğallar qalanın içərisinə təmiz hava daxil olmaq işində xidmət edirdi. 1962 – 1963 – cü illərdə qalanın birinci mərtəbəsində arxeoloji qazıntı işləri aparılmışdır. 5 metr dərinliyə qədər davam etdirilən həmin qazıntı nəticəsində məlum olmuşdur ki, abidənin bünövrəsi dənizə tərəf enişli olan nəhəng bir qayanın üzərində tikilmişdir. 1964 – cü ildə qalada tədqiqat işləri aparılan zaman bünövrədən 14 metr hündürlükdə içəriyə doğru uzanan böyük ağac tirlərinin olduğu müəyyən olunmuşdur. Onların nə məqsədlə istifadə edilməsi hələ də elm aləminə sirr olaraq qalır. Qız Qalasının bu gündə hansı məqsədlə tikilməsi tədqiqatçıları düşündürən məsələlərdən biridir. Bununla əlaqədar olaraq qala haqqında bir çox rəvayətlər mövcuddur; “Bir qız varmış, bu qızı Arazın o tayından bir xan öz oğluna almaq istəyirmiş. Xan neçə dəfə elçi yollayır, qızın “hə”sini ala bilmir. Xan xəbər göndərir ki, qızı xoşluqla verməsəniz, gəlib zorla alacam. Qızın qardaşları bir qala tikdirirlər. Neçə ilin azuqəsini yığıb, yerin altıyla su çəkdirib, qalada yaşamağa başlayırlar. Xan qoşun çəkib gəlir, nə qədər eləyir, qalanı tuta bilmir. Bir qoca, xana deyir ki, odunun yolunu, suyun yolunu kəssən, qalanı ala bilərsən. Xan qalanın odun yolunu kəsir. Qızın qardaşları odun yerinə tüfəngin qundağını yandırırlar. Xan nə qədər eləyir, qalanın su yolunu tapa bilmir. Qoca

deyir: Gedin bir qatıra o ki var arpa yedizdirin, amma su verməyin. Aparın qalanın dörd bir yanını dolandırın, qatır harda ayağını yerə döysə – su yolu ordadır. Elə də eləyirlər; qatır ayağını döyən yeri qazıb, qalanın suyunu kəsirlər, qızı götürüb aparırlar. Qatır qalası o vaxtdan qalmalıdır. Bu qalaya Qız qalası da deyirlər. [Şəkil;6]

Bəzi qaynaqlarda qalanın dini, astronomik, müdafiə və s. məqsədlə tikildiyi ehtimal olunur. Bu gün  Bakı şəhərinin simvoluna çevrilmiş Qız Qalasının hansı məqsədlə tikilməyindən asılı olmayaraq 900 yaşlı qala xalqa xidmət edir. Bakıya gələn turistlərin ilk səyahət nöqtələri məhz Qız Qalasıdır. Qız Qalası ilə yanaşı Abşeronun kəndlərində də inşa edilmiş qalalarda öz əzəmətini qoruyub saxlayır.

Mərdəkan qalası Bakının Mərdəkan qəsəbəsində qədim tarixə malik qaladır. Qala dördkünc formada tikilmişdir. Mərdəkan qalası XIV əsrin ortalarında (bəzi mənbələrdə 1187/ 88 – ci illərdə) Şirvanşah Mənüçöhrün oğlu Şirvanşah Axistanın göstərişi ilə memar Əbdülməcid Məsud oğlu tərəfindən inşa edilmişdi. Qala Axistanın düşmən üzərində parlaq qələbəsi şərəfinə ucaldılmışdı. Qaladan feodalların sığınacağı və gözətçi məntəqəsi kimi istifadə edilmişdir. Qalanın hündürlüyü 22 metr, qalınlığı aşağıdan 2.10 metr, yuxarıdan 1.60 metrdir. Daxili həyəti 28x25 – dir. İçəridən qala 5 yarusa bölünür. Qala müasir günümüzdə də turistlərə xidmət göstərir. [Şəkil 7]

Mərdəkanda mövcud olan qalalardan biridə dairəvi qaladır. Yerlilər bu qalanı "Şıx" qalası adlandırırlar. Qalanın hündürlüyü 12,5 metr, içərisi 3 yarusdan ibarətdir. Qalanın üstündəki yazıdan məlum olur ki, qala 1232 – ci ildə Əbdülməcid Məsud oğlu tərəfindən tikilmişdir. Dairəvi Mərdəkan qəsrinin hündürlüyü 16 metrdir. Qəsri əhatə edən qala hər tərəfdən yeddi metr hündürlüyündə daş divarla hörülmüş kvadrat formalı həyətdən ibarətdir. Hasarın tinlərində qüllələr, məhəccər və mazğallar vardır. Planda dairəvi olan qəsr yuxarı getdikcə daralır. Hündürlüyü boyu qəsr üç hissəyə bölünmüşdür. Bu hissələrin hamısı sferik gümbəzlə örtülərək, bir – biri ilə divarın içində qurulan pilləkənlə əlaqələnir. İki və üçüncü mərtəbələrə işıq düşmək üçün bayırdan içəriyə doğru kəskin surətdə genişlənən ensiz zolaq şəklində pəncərələri vardır. Qəsr əhəng

məhsulu ilə yerli əhəngdaşından hörülmüşdür. Qəsrin daşlarında həkk olunan yazıların oxunması zamanı onun 1232 – ci ildə inşa edilməsi məlum olmuşdur. [Şəkil 8].

Abşeron memarlığının möhtəşəm qalalarından biri də Nardaran kəndində tikilmiş qaladır. Nardaran Qalası XIV əsrə aid ağ daşdan tikilmiş dəyirmi qaladır. Qalanı memar Mahmud Səd oğlu tikmişdir. Qalanın hündürlüyü 12.5 metrdir. Qalanın üzərindəki kitabədən aydın olur ki, qala 1301 – ci ildə inşa edilmişdir. Bəzi tarixi qaynaqlarda Qalanın gözətçi qalası funksiyasını daşıdığı ehtimal edilir. Hal – hazırda qala muzey kimi fəaliyyət göstərir. [Şəkil 9].

İstehkam qalaları içərisində özünəməxsusluğu ilə seçilən qala "Şağan" qalasıdır. Şağan qalasının inşasında Abşeron memarlığının əsas istehsal materiallarından sayılan ağ daşdan istifadə edilmişdi. Dövrümüzə qədər gəlib çatmış qalanın bir hissəsi dağılmışdı. Qalanın inşası XII – XIII əsrləri əhatə edir. [Şəkil 10].

Ramana qalası Bakının Ramana kəndində XVI əsrə aid qaladır. Qalanın hündürlüyü 15 metrdir. Ağ daşdan tikilən qalanın dəqiq tikilmə vaxtı bəlli deyil. Müdafiə məqsədi ilə tikilib və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Ramana qalasından "Koroğlu", "Nəsimi" və "Babək" filmlərinin çəkilişində istifadə olunub. Qala sonuncu dəfə 1956 – cı ildə "Koroğlu" filminin çəkilişləri zamanı bərpa olunub. Tarixçilər Ramana qalasından Qız qalasına vaxtı ilə yeraltı yolun olduğunu qeyd ediblər. Ramana kəndindəki qəsr, Mərdəkandakı qəsrdən fərqli olaraq, başqa təbii şəraitdə - qayalıqda yerləşir. Plan və memarlıq həlli üsullarına görə Ramana qəsri digər Abşeron qəsrlərlə olduqca oxşardır. Lakin özünün memarlıq kütləsinin daha mənzərəli kompozisiyası ilə fərqlənir. Bu onun yerləşdiyi relyefin xüsusiyyətlərindən irəli gəlir. Qəsr dekorativ tərtibatdan məhrumdur və üslub əlamətlərinə əsasən XIV əsrin ortalarına aid edilir. [Şəkil 11].

Abşeronda əsasən də Bakıda şəhərsalma özünün xüsusiyyətləri ilə seçilirdi. Zaman baxımından Abşeronda müxtəlif tipli qalalar, qəsrlər, yaşayış binaları və s. inşa edilirdi. XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycanda hər tərəfli intibah yaşanırdı. Bu intibahın göstəricilərindən ən önəmlisi Bakıda inşa edilən

yeni yaşayış və inzibati binalardır ki, bu gündə öz əzəmətini qoruyub saxlamaqla tarixi – mədəni turizmin inkişafında əsas rol oynayır. Azərbaycanın paytaxtı Bakının neft bumuna çevrilməsinə baxmayaraq, Bakı şəhərində bağ – bağça, yaşıllıq yox dərəcəsində idi. Bakıda imkanlıların sayının artması ilə onlarda şəhərə qayğı göstərmək prinsipi də yüksəlməkdə idi. Bu dövrdə Bakının yaşıllaşması ilə əlaqədar olaraq bir çox bağ və parklar salınırdı. Bunlara "Şəhər bağı", "Malakan bağı", bu gündə yerli əhali ilə yanaşı Bakı şəhərinə üz tutmuş turistlərin istirahət məkanına çevrilmiş "Dəniz kənarı bulvar" ı göstərmək yerinə düşərdi. Bakının yaşıllaşdırılması ilə yanaşı yaşayış və inzibati binaların tikintisi ilə Bakının gözəlləşdirilməsi davam etdirilirdi.

XIX – XX əsrin əvvəllərində Bakıda yaranan milli memarlıq məktəbi müxtəlif cərəyanların hökm sürməsi üzündən hələ tamamilə bərqərar ola bilməmişdi. Bu dövrdə hələ Bakı arxitekturası əsasən Avropa memarlığından qidalanırdı. Bu da prinsipcə həm yerli, həm də bütün şərq aləmi memarlığında milli üslub və xüsusiyyətlərin təcəssümünə maneə olmurdu. Yerli memarlıq tikililərində, yaşayış binalarının kompozisiyalarında yüngül tipli eyvanlardan, tağvari pəncərələrdən çox istifadə edilirdi. Qeyd etmək lazımdır ki, XIX – XX əsrlərdə şəhər tikintisi əsasən Avropa memarlığı üzərində qurularkən, yerli kolorit məhz məscidlərin və hamamların tikilişində hiss olunurdu. XIX əsrin sonunda Azərbaycan memarlığında başqa cərəyanlarla yanaşı qotika da öz yerini tapır. Qotikadan ayrı – ayrı mülki tikililərin inşasında istifadə edilirdi. Bakıda qotika üslubunun tətbiq edilməsində o zamankı alman və polyak əhalisinin böyük rolu olmuşdur.

Bakıda ən qotik bina köhnə Akademiya – İsmayiliyə (indiki Rəyasət heyətinin) binasıdır (Bu binada Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti və eyni zamanda Azərbaycanın görkəmli mütəfəkkiri Hüseyn Cavidin mənzili yerləşmişdi). Binanın memarlığında Venesiyadakı məşhur "Daflar" sarayının təsiri hiss olunur. Burada qotikanın Venesiya mənşəli kompozisiya, müsəlman – şərq memarlıq elementlərlə birləşib xüsusi gözəllik yaradır. Hal – hazırda bu binada Hüseyn Cavidin mənzil muzeyi yerləşir. Bu muzeyi ziyarət edən yerli və xarici

turistlər mütəfəkkirin həyat və yaradıcılığı ilə tanışlıqla yanaşı Venesiya qotikası ilə müsəlman – şərq memarlığının vəhdətindən yaradılmış binanın görünüşündən heyran olurlar. [Şəkil 12]

XX əsrin əvvəlində Bakıda qotik üslubundakı tikilmiş binalardan biri də, M. Muxtarovun göstərişi, memar İ. Ploşkonun rəhbərliyi ilə inşa edilmiş "Səadət" sarayıdır. Sarayın tikintisində şərq – memarlıq üslubunun tətbiqi edilməsini təkidlə bildirən Ploşko M. Muxtarovdan etiraz cavabı alır. Buna səbəb M. Muxtarov həyat yoldaşı Liza Tugavova ilə Florensiyada səyahətdə olan zaman Liza xanımın buradakı binalardan xoşuna gəlməsi idi. "Səadət" sarayı M. Muxtarovun istəyi il fransız qotikası üslubunda inşa edilib. Saray 100 ildən sonrada Bakı əhalisinə xidmət edirdi. Hal – hazırda Azərbaycan hökumətinin sərəncamı ilə sarayda restavrasiya işləri aparılır. [Şəkil 13]

Bakı şəhərinin tarixi və eyni zamanda turistlərin diqqətini çəkəcək binalardan biri də Bakı şəhər Dumasının (Bakı şəhər İcra hakimiyyətinin ) binasıdır. Memar İ.V. Qoslovskinin rəhbərliyi altında barokko memarlıq üslubunda inşa edilmişdi. Binanın fasadının bəzədilməsində İtaliyadan gətirilmiş inşaat materiallarından istifadə edilmişdi. [Şəkil 14]

H.Z. Tağıyevin tikdirdiyi binalar müasir günümüzdə də paytaxt sakinlərinin və paytaxtda qonaq olmuş insanların diqqətini cəlb edir və zövqünü oxşayır. Tağıyevin tikdirdiyi teatr binası da bunlardan biridir. Teatr binası Bakı şəhərində inşa edilmiş ilk teatr binasıdır. Bu binanın tikintisinə milyonçular Tağıyevlə, Mayılov arasında olan mərc səbəb olmuşdur. Opera və Balet teatrı keçmiş Torqovı (indiki Nizami) küçəsində memar N.Q. Bayevin layihəsi əsasında 1 il müddətinə qotik üslubunda inşa edilib başa çatdırılmışdı. Binanın fasadının füsunkar şəkildə bəzədilməsi şəhərin bu hissəsinə xüsusi gözəllik verir. [Şəkil 15]

Azərbaycan Dövlət Filarmoniyasının binası 1910 – 1912 – ci illərdə "İctimai toplantıların yay binası" proyekti kimi inşa edilmişdi. Binanın görünüşü öz möhtəşəmliyi ilə seçilir. Burada klassik musiqiləri dinləmək insana xüsusi zövq verir. Binanın yay pavilyonunun Filarmoniya bağına açılmasını xüsusi ilə vurğulamaq yerinə düşər. Binanın İçərişəhər divarlarının yaxınlığında inşa edilməsi

müasirliklə, tarixiliyin vəhdətində ortaya möhtəşəm mənzərə çıxarmış olur. [Şəkil 16]

Dəniz kənarı parkda yerləşmiş Azərbaycan Dövlət Kukla teatrının binası 1910 – cu ildə memar İ. Ploşko tərəfində qotika üslubunda inşa edilmişdi. Bina ilk illərində "Fenomen" kinematoqrafiyasının binası kimi fəaliyyət göstərmişdir. 1931 – ci ildən isə uşaqlar üçün teatr kimi fəaliyyət göstərmişdir. Bina 2007 – ci ildə Azərbaycan hökumətinin sərəncamı ilə restavrasiya olunmuşdur. [Şəkil 17]

Azərbaycanda Sovet sosialist sistemi qurulduqdan sonrada müxtəlif tipli yaşayış və inzibati binalar inşa edilmişdi. XX əsrin70 – ci illərində Bakı şəhərinin memarlıq planlaşdırılması işlənilib hazırlanmışdı. Bu plana əsasən Bakı 2000 – ci ilə qədər tamamı ilə yenidən qurulmalı idi. Əsasən nəqliyyatda məsafənin azaldılması baxımından metroların yaradılması nəzərdə tutulmuşdur. Planlaşdırmanın ən böyük məqsədi sahil boyu yaşıllıq zolağının yaradılmasıdır. Bu park şəhərin mehmanxanalar, kempinqlər, motellər, idman qovşağı kompleksinə malik turist mərkəzinə çevrilməsi nəzərdə tutulan Bayıl burnundan başlanacaq və şərqdə meşəlik rayonunda qurtaracaqdı. Bu yaşıl zona şəhərin əhali üçün nəzərdə tutulmuş əsas istirahət məkanlarından biri olacaqdır. [8,səh 2].

Hökumət Evi - Bakı şəhərinin mərkəzində yerləşən tarixi saray. Binanın memarları Lev Rudnev və Vladimir Muntsdur. Sarayın inşasına 1924 - cü ildə, ASSR-in yenicə qurulduğu dövrdə başlanmış və mürəkkəb inşaat işləri 1952 - ci ildə tamamlanmışdır. Azərbaycanda Sovet hakimiyyətinin ilk qurulduğu dövrlərdə hökumət işçilərinin çalışması üçün müvafiq bina olmadığından bu cür bir binanın inşasına ehtiyac olmuşdur. Məhz bu səbəbdən də SSRİ hökumətinin aldığı qərara əsasən Bakıda möhtəşəm hökumət binasının inşa edilməsi qət edilmişdir. Layihə üzərində çalışan memarlar qarşısında isə böyük sosialist dövlətinin qüdrətini və parlaq gələcəyini özündə əks etdirən bir bina inşa etmək vəzifəsi qoyulmuşdur. Saray qotik memarlıq üslubunda Lenin (indiki Azadlıq) meydanında inşa edilmişdir. Sarayın layihəsində fasadın müxtəlif heykəllərlə bəzədilməsi nəzərdə tutulsa da, inşa dövrünün Böyük Vətən Müharibəsi zamanına təsadüf etməsi fasadın daha sadələşdirilməsi, heykəllərin və bahalı daş işləmə nümunələrinin

təxirə salınması ilə nəticələnmişdir. Həmçinin müharibə nəticəsində ələ keçirilən alman əsirlər, aktiv şəkildə sarayın inşasına cəlb olunmuşdur. [Şəkil 18]

XX əsrin 80 – ci illərində Azərbaycan SSRİ Ali Sovetinin qərarı ilə Bakı şəhərində tikilmiş, tarixiliyi ilə qədim, memarlığı ilə zəngin olan, yerli və xarici memarlar tərəfindən inşa edilmiş inzibati və yaşayış binaları yenidən qurulurdu. Bərpa işləri inzibati, yaşayış binaları ilə yanaşı dini binalarda da aparılırdı. Azərbaycan müstəqillik qazandıqdan sonra da Bakı şəhərində şəhərsalma işləri davam etdirilirdi. Müasir günümüzdə ucaldılan hündürmərtəbəli binalarla yanaşı inzibati binalarda inşa etdirilir.

Yüngül konstruksiya ilə inşa edilmiş "Beynəlxalq Muğam mərkəzini" göstərə bilərik. Dəniz kənarı parkda inşa edilmiş mərkəz "tar" ın hissələrini xatırladır. Yenicə istifadəyə verilmiş muğam mərkəzi bu gün təkcə öz görünüşü ilə deyil, eyni zamanda mərkəzdə keçirilən muğam müsabiqələri və müxtəlif beynəlxalq tədbirlərlə Azərbaycan mədəniyyətinin zənginliyini sübut etməklə yanaşı, dəniz kənarı parkda istirahət edən yerli və xarici qonaqların diqqətini cəlb edir.[Şəkil 19]. Muğam mərkəzinin yaxınlığında inşa edilən "Xalça muzeyi" bükülmüş xalçanı xatırladır. Muzeyin fəaliyyətə başlaması nəticəsində Azərbaycan öz tarixi xalçaçılıq ənənələrini dünyaya daha da geniş şəkildə tanıtdıracaq və bura xarici turistlərin cəlb edilməsi ilə mədəniyyətimizi təbliğ etməklə tarixi – mədəni turizmin inkişafına öz töhfəsini verəcəkdir. Müasir tikililərimizdən biri də yaxın gələcəkdə açılması nəzərdə tutulan "Heydər Əliyev Mərkəzidir". Bu mərkəz Qız Qalası kimi, müasir dövrün möhtəşəm tikililərindən biri olacaqdır. Bakının şəhərsalma planı yenidən işlənib hazırlanıb ki, buna bir neçə üslublu layihələrin təsdiq edilməsini göstərmək olar. Bunlardan ən möhtəşəmi "Baku White City" layihəsidir ki, artıq bu layihə başlanmaqdadır.

Bu gün öz tarixiliyi ilə qədim, memarlığı baxımından göz oxşayan, tarixi – mədəni turizmin inkişafında xüsusi önəm daşıyan abidələrimizdə restavrasiya işləri aparılır. Abşeron ərazisində mövcud olan abidələr Azərbaycana gəlmiş turistlərinin diqqətini xüsusi ilə cəlb edir. Bu baxımdan ərazidə mövcud olan dini abidələrdə tarixi – mədəni turizmin inkişafında öz rolunu artırır. Azərbaycanda mövcud olan

müxtəlif dini məzhəblərin ibadətgahlarında Bakıya gələn turistlərin öz dini inanclarını yerinə yetirilmələrinə maneə olmur. Ona görədir ki, Azərbaycan tolerant ölkədir. Abşeron ərazisində islam dininin, xristianlığın, İudaizmin dini ibadətgahları mövcuddur ki, Azərbaycan hökuməti bu binaların yenidən qurulmasına külli miqdarda maliyyə yardımı ayırır.

## II. Fəsil. Mədəni – tarixi turizmdə Abşeron dini abidələrinin rolu.

### II.1. Xristianlıq dini abidələri mədəni dəyərlər kimi.

Müasir dünyada üç monoteist (mono – tək, teos – Allah) dini vardır; İudaizm, Xristianlıq və İslam.

İudaizm Qədim yəhudilərin rəvayətinə görə qəbilənin əsasını qoyan İehudanın (sonralar İuda şəklində deyilmişdir) adı ilə adlandırılan yəhudi dinidir. Bu dinin əsas müqəddəs kitabları Tövrat (5 kitab) və Talmuddur.

Xristianlıq (yun. Xristos – məsh olunmuş) İsa Məsihinin Əhdi – Cədid (Əhdi – Ətiq) dini kitabında əksini tapmış həyatının təsvirinə və baxışlarına əsaslanan monoteistik dünya dinidir. Digər adları məsihçilik, məsihilik, nəsraniyyət, tərsa hesab edilirdi. Əhdi – Ətiqədə göstərilir ki, insanları törətdikləri şər və günahlardan azad etmək, onları pis yoldan xilas edib Allah yoluna qaytarmaq üçün

yerə Allahın elçisi Messiya (xilaskar) gələcəkdir. Bu xilaskar Müqəddəs Məryəmin oğlu və eyni zamanda Allahın oğlu sayılan İsa Məsih (İsus Xristos) olmuşdur.

Xristianlıq b.e I əsrində Fələstində yaranmış, IV – V əsrlərdə isə rəsmən qəbul edilmiş, dinə çevrilmişdir. Xristianlığın müqəddəs kitabı Əhdi – Cədid İsa Məsihinin həvariləri (apostolları) tərəfindən söylənilmiş dörd İncildən (Yevangeliyadan) həvarilərin fəaliyyətinin dini təsvirindən, bəzi həvarilərin məktublarından, bir də Vəhydən (Apogalipsis – axirət günü haqqında yazı) ibarətdir. Bu kitabda İsa peyğəmbərin dünyaya gəlişindən, onun Allah kəlamını insanlara çatdırılmasından, çəkdiyi əziyyət və iztirablardan, öldürülməsi və dirilməsindən, Allahın dərgahına qovuşmasından bəhs edilir.

Xristianlığın üç əsas qolu vardır: katolisizm, pravoslavlıq, protestantizm. Xristianlığın ilk dəfə yayılmasına həvarilər Pyotr və Pavel başlamışlar. I Konstantin Milanın fərmanından sonra xristianlıq Roma imperiyasında rəsmi din oldu. Cənubi Qafqazda yeni din yaranandan yayılmağa başlamışdır. Albaniyalı həvari Yelisey Yerusəlimin birinci patriarxı həvari Yaqub tərəfindən Qafqaz Albaniyası patriarxı təyin olunmuşdu. Xristianlıq Azərbaycan ərazisinə eranın ilk əsrlərində, hələ İsa Məsihinin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz etmişdir. 70 – ci ildə Yerusəlimin (Qüdsün) süqutundan sonra yəhudilərin Qafqaza köçürülməsi güclənir. Gələnlər İsanın göstərdiyi möcüzələrdən danışırdılar. Bu cür təbliğin təsiri altında bölgədə ilk xristian icmaları yarandı. Albaniyada xristianlığın yayılmasında bu dövr həvari (Sirafil) dövrü adlanır və həvarilərdən Varfolomey və Faddeyin adları ilə bağlıdır. Həvari Faddeyin şagirdlərindən olan Yelisey Yerusəlimin birinci patriarxı Yəqubun xeyir – duası ilə yeni dini təbliğ edə - edə Aqvan diyarına gəlib çıxmış və Kiş adlı yerdə kilsə tikdirmişdir. Bu kilsə Ermənistandakı birinci xristian kilsəsindən qabaq tikilmişdir. Sonralar Yelisey xristianlığın təşviqini davam etdirmişdir. Bununla əlaqədar olaraq Yelisey bütpərəstlər tərəfindən öldürülərək çalaya atılmışdır. Alban məliyi Vaçaqanın göstərişi ilə Yeliseyin cəsədinin qalıqları Xruq kəndində torpağa tapşırılmış və üzərində kiçik bir məbəd inşa edilmişdi. Roma imperatoru Konstantin xristianlıq etiqadı üzərindən qadağanı götürəndə Alban hökmdarı

Urnayır xristianlığı dövlət dini elan edir. Bu vaxtdan etibarən Azərbaycanda xristianlığın yayılmasının qrekofil dövrü adlanan yeni dövr başlanır. Akademik Z. Bünyadov göstərir ki, Urnayır, II Vaçe və III Vaçaqan ölkədə xristianlığı yaymaq üçün mübarizə aparmışlar. IV – V əsrlərdə ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapır. Katolikosun göstərişi ilə feodallar öz ərazilərində kilsə üçün xüsusi yerlər ayırırdılar. Bölgədə kilsələr tikilir, dini kitablar siryani, arami və yunan dillərindən Alban dilinə tərcümə edilirdi. Sinayda aşkar edilmiş "Alban yazısında və Alban dilində" leksionari dünyada xristianlığın ən qədim kütləvi qiraət kitablarından sayılır.

Alban katolikosunun iqamətgahı Çoqay şəhərində yerləşirdi. VI əsrdə iqamətgah Bərdəyə köçürülmüşdür. Alban məlikliyinin süqutundan sonrada ölkədə xristianlığın rolu zəifləmişdi. VIII – IX əsrlərdə Azərbaycan ərazisində müstəqil dövlətlər yarananda Alban kilsəsi yenidən avtokefal kilsə statusunu bərpa etmişdir. X – XI əsrlərdə bölgədə şərq xristianlığı nüfuzunu müəyyən dərəcədə qoruyub saxlaya bilmişdi. Bu vəziyyət XVIII əsrə kimi davam etmişdir. 1836 – cı ildə çar hökuməti Sinodun təqdimatı ilə Alban kilsəsini ləğv edir, kilsənin bütün əmlakı Eçmiədzin katolikosluğuna verilir və bütün arxivlər isə məhv edilir. XX əsrin 80 – 90 – cı illərində Alban kilsəsi bir daha bərpa olunur. 2003 – cü ildə Alban – udi xristian icması dövlət qeydiyyatından keçir. Bu hadisə Şəkidəki Kiş kilsəsinin bərpasından sonra olmuşdur. Azərbaycanda xristianlıq özünün pravoslavlıq, katolik və protestantlıq qolları, habelə müxtəlif sektan icmaları ilə təmsil olunmuşdur.

Pravoslavlıq Azərbaycana XIX əsrin əvvəllərindən etibarən rus çarizminin bölgədə yeritdiyi "köçürmə siyasəti" çərçivəsində nüfuz etməyə başlamışdır. Rus pravoslav kilsəsində baş verən parçalanmanın qarşısının alınması ilə bağlı olaraq sektant xristianların Qafqaza sürgünü başlanır.

Katolisizm. Bakıda ilk Roma – katolik prixodu XIX əsrin 50 – ci illərində rus odrusu tərəfindən hərbiçi katoliklərin Qafqaza sürgün edilməsi ilə əlaqədar olaraq yaradılmışdır. XIX əsrin sonlarında "Müqəddəs Məryəmin Bakirə Hamiləliyi" şərəfinə "Müqəddəs xaç kilsəsi" tikilir. XX əsrin sonlarında Bakıda Roma – Katolik icması yenidən bərpa olunur.

Qafqaz Albaniyası dövründə xristianlığın geniş yayılması nəticəsində Azərbaycanın Böyük Qafqaz və Kiçik Qafqaz ərazilərində çoxlu sayda Alban xristianlıq məbədləri inşa edilmişdir. Qafqaz Albaniyası zamanında inaşa edilmiş bir çox məbədlər dövrümüzə qədər gəlib çıxmışdır. Bərdə şəhəri ərazisində arxeoloji qazıntılar zamanı aşkarlanmış qədim üçfenli alban məbədi Bərdə bazilikasıdır. Bazilika uzun müddət alban katolikoslarının iqamətgahı olmuşdur. Bərdə ilə yanaşı Kəlbəcər rayonu Bağlıpəyə kəndi ərazisində Qafqaz Albaniyasına aid "Xudavəng" monastır yerləşir. Xudavəng monastır kompleksi (Dədəvəng monastırı) VI – VII əsrlərdə Alban knyazı tərəfindən tikdirilib. Qarabağ ərazisində bu abidələrlə yanaşı: Müqəddəs Yelisey kompleksi, Ağoğlan monastırı, Dəmirovlu pir məbədi, Minkənd məbədi, Vazqun məbədi, Amaras monastırı və s. adlarını çəkmək olar. Adları çəkilən məbədlərin ermənilərin Azərbaycanın Qarabağ bölgəsini işğal etmələri nəticəsində Azərbaycan tərəfinin bu abidələrə diqqət yetirməsi mümkün deyil. Bundan istifadə edən ermənilər adları çəkilən tarixi Alban məbədlərinin üzərində özlərinə sərf edəcək şəkildə dəyişikliklər aparırlar. Azərbaycanın Kiçik Qafqaz ərazisi ilə yanaşı, Böyük Qafqazın ətəklərində yerləşən Qəbələ, Şəki, Zaqatala, Oğuz və s. şəhərlərində də Alban dövrünə aid məbədlər mövcuddur. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bu məbədlər bərpa və restavrasiya edildikdən sonra turistlərin ixtiyarına verilib. Bu gün Bakıda, ümumiyyətlə Azərbaycan ərazisində olan xristianlıq dini abidələri varlıqları ilə tarixi – mədəni turizmin inkişafı ilə yanaşı dini turizmin inkişafında da əhəmiyyətli xüsusiyyətlərə malikdir. Müxtəlif dövrlərdə və bu gündə Bakı ərazisində mövcud olan xristianlıq, iudaizm və islam abidələri Azərbaycanda tolerantlığın (dini dözümlük, yəni digər inanc və əqidələrə dözümlü yanaşma) üstün olduğunu bir daha sübut edir. XX əsrin sonunun əsasən sosialist düşərgəsinin süqutu nəticəsində, dünyanın mövcud siyasi xəritəsinin dəyişməsi, habelə ictimai həyatın müxtəlif sahələri ilə bağlı bir sıra qlobal problemlərin yaranması və gərginləşməsi ilə səciyyələndirmək olar. İqtisadi, ekoloji və demokratik problemlərlə yanaşı, əxlaqi – etik dəyərlərə lazımı diqqət yetirilməməsi nəticəsində mənəviyyat problemləri də kəskinləşmişdir. Bundan başqa dünya dinləri arasında

mövcud fərqlərə əsaslanan “sivilizasiyaların toqquşması” nəzəriyyəsi meydana çıxmış və öz fəaliyyətlərinə bəraət qazandırmaq məqsədilə dini amildən istifadə edirlər. Belə bir şəraitdə bəşər sivilizasiyasının müxtəlif mədəniyyətlərin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Azərbaycan bir çox millətlərin və konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. Bu ənənənin kökləri tarixin dərinliklərinə gedib çıxır. Babil hökmdarı II Novuxodonosurun Yerusəlimi zəbt etməsi nəticəsində talan olmuş İudeya çarlığından qaçan yəhudi köçkünləri Azərbaycan torpağında özlərinə sığınacaq tapmışlar. Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm əlaqələrin formalaşmasında onların tale ümumiliyi amili də böyük rol oynamışdır. Tarix boyu Azərbaycanda yaşayan xalqlar dəfələrlə qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş və yaranmış şərait onların dünya görüşlərindəki fərqlərə baxmayaraq yaxınlaşmağa vadar etmişdir. Sovet İttifaqının dağılması regionda dözümlük ənənələri üçün əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikalarının xalqları müstəqilliklə yanaşı dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan erməni təcavüzü yaradırdı. Azərbaycan – Ermənistan Dağlıq Qarabağ münaqişəsi dini zəmində baş verməsə də, Ermənistanın dini lideri I Vazgen praktiki olaraq separatçı hərəkatı qızışdıran şəxslərdən biri olmuşdur.

Eramızın ilk əsrlərində Azərbaycanda (Qafqaz Albaniyasında) yayılmağa başlayan xristianlıq burada spesifik inkişaf yolu keçmişdir. Dünyanın bir çox xristian ölkələrindən fərqli olaraq Azərbaycanda xristianlıq tarixinin demək olar ki, bütün istiqamət və təlimləri ayrı – ayrı tarixi dövrlərdə mövcud olub. Erkən (Apostol) dövrü eramızın ilk əsrlərini əhatə edir və Albaniyaya xristianlığı yaymaq üçün gələn apostol Faddeyin tələbəsi Yeliseyin Kişdə (Qis) ucaltdığı kilsə ilə bağlıdır. Qeyd etmək vacibdir ki, Kiş ehramı bölgədə ilk xristian kilsəsidir. Əsasən

nəsturi (nestorian) istiqaməti yayılır, lakin V əsrdə monofizitliq kilsə yığıncağı tərəfindən qadağan edilir. XIV əsrdən başlayaraq Azərbaycanın Avropa ilə diplomatik, ticari əlaqələri ölkəyə müxtəlif xristian missionerlərinin axınına zəmin yaradır: 1320 – ci ildə katolik manax Jurden Katali de Severak, Odorik de Ponderon, 1645 – ci ildə Şamaxıda iyezuit missiyası fəaliyyətə başlayır. XII əsrin sonunda isə Gəncədə Polşa iyezuitlərin missiyası açılır. Ümumiyyətlə katolik xristianlığın Azərbaycanda polşalılara təqdim olunmağı ənənəvidir. Onlar Bakı quberniyasında ilk dəfə 1840 – cı ildə qeydə alınırlar. Kütləvi xarakterli köçmələr XVIII əsrin sonundan başlayır və XX əsrin sonuna qədər davam edir. Milli azadlıq hərəkatının nümayəndələri Azərbaycana sürgün edilir. XIX əsrin sonundan başlayaraq Bakıya Polşa ziyalı təbəqəsi və peşəkar işçiləri gəlməyə başlayır. Bunun əsas səbəbi Bakının XIX əsrin sonu XX əsrin əvvəllərində dünyanın neft mərkəzlərindən birinə çevrilməsi idi. Bu dövrdə ilk gəlmələrin ehtiyacı dini abidəyə idi ki, kiçik ölçülü kilsələr fəaliyyət göstərirdi. Bakıda intensiv inkişaf edən memarlıqda isə iki bədii istiqamət işlənilib: milli – romantik üslub adlandırılan cərəyan yerli ənənələrə əsaslanır və Abşeron – Şirvan məktəbinin elementlərindən istifadə edir. İkinci cərəyan gəlmə memarların fəaliyyəti ilə bağlıdır və ümumiləşdirilmiş şəkildə “Avropa memarlığı” kimi qeyd olunur. Əsasən rus memarları tərəfindən icra olunan Avropa üsullu tikililər elektika üslubunun Bakıda yayılmasına təkan verir. Qeyd olunan zaman çərçivəsində dünya memarlığında  hər hansı konkret bir üslub haqqında danışmaq qeyri – mümkündür. “XX əsrdə bir neçə üslubdan istifadə edilib, lakin özünəməxsus yeni bir üslub yaradılmayıb”. Bu baxımdan XX əsrin əvvəllərində Bakı memarlıq baxımından heç bir Avropa şəhərindən fərqlənmirdi. Barokko, klassisizm, intibah, qotika, roman üslubları məharətlə tikililərdə tərtib olunurdu. Eyni zamanda inşaat sənətinin yenilikləri memarlıq və konstruksiyanın vəhdətinin axtarışı yeni cərəyan – modernin meydana gəlməsinə zəmin yaradır. Bu dövrdə Bakıda Peterburq inşaat institutunun ustadları çalışır: İ. Qoslavskiy, İ. Ploşko, P. Ştern, A. Eyxler, A. Kalgin, eyni zamanda bu dövrdə peşəkar Azərbaycan memar və mühəndisləri fəaliyyət göstərir: Z.B. Əhmədbəyova, İ. Qoyar, H. Axundov, Q.B. Hacıbəyov və

b. Yaşayış və ictimai tikililərlə bərabər bütün yeniliklər Bakının ibadət abidələrində də öz əksini tapmışdır. Avropa üslubları konkret tikili tiplərinə görə təsnifatlandırılmışdır: Kirxa və kostyollar – qotik üslub, təhsil müəssisələri, vağzallar – italyan intibahı, teatr konsert zalları – intibah və barokko. Bu dövrün məşhur xristian abidələri Bakı ilə bərabər Azərbaycanın əhəmiyyətli sənaye bölgələrində də ucaldılır (Helendorf Kirxası, Annenfeld Kirxası). Qeyd olunan abidlərin müəllifləri və sifarişçiləri alman olduğuna görə, onların tərtibatında roman – qotika üslubu izlənir. Bu üslubun daha bir parlaq nümunələri sənaye tikililəridir: Ziqanter pendir zavodu, simenslərin şampan şərab zavodu, filizlər, inzibati binalar. Abşeron yarımadasında mövcud olmuş və hal hazırda öz mövcudluğunu qoruyub saxlamış xristianlıq dini abidələri özündə həm tarixi, həm də mədəni dəyərləri qoruyub saxlayır.

XIX əsrin 50 – ci illərində Bakıda kiçik ölçülü kilsə yaranır və 1882 – ci ildə isə artıq müstəqil katolik prixodu fəaliyyət göstərirdi.1909 – 1912 – ci illərdə isə paytaxtda 1200 insanın yerləşəbiləcəyi Roma katolik kilsəsi Müqəddəs Mariya ("Polşa Kostyolu") inşa edildi. Kostyolun memarı Polşa mənşəli İosif Ploşkodur. 1930 – cu illərdə dağıdılan bu abidənin inşası polyak mənşəli neft milyonçuları Relski ailəsi və Zqlenskiy tərəfindən maliyyələşdirilmişdir. Ploşko burada Polşa qotikasının əsas səciyyəvi xüsusiyyətlərini dekorativ həldə müəyyən məhdudiyyətlər: sadə nisbətlər, kənar divarların pilləvarı həllinə üstünlük verib. Əfsuslar olsun ki, bir neçə digər dini abidələrin aqibəti kimi katolik kostyoluda dağıdılmışdı. Hal hazırda kostyolun yerində keçmiş Şəhriyar adına mədəniyyət klubu fəaliyyət göstərir. Bu gün kostyol öz varlığını qoruyub saxlayardısa ilk növbədə möhtəşəm görünüşünə görə xarici və yerli tamaşaçıları özünə cəlb edə bilərdi.[Şəkil 20].

Bakı şəhərinin möhtəşəm kilsələrindən biri də Aleksandr Nevski Baş kilsəsi olmuşdur. Provaslav kilsəsi xalq arasında "Qızıllı" kilsə kimi də tanınırdı. Tikintisinə 1898 – ci ildə başlanılmış kilsə 1936 – cı ildə Stalin hökumətinin qərarı ilə sökülmüşdür. Aleksandr Nevski kilsəsi Cənubi Qafqazın ən böyük kilsəsi idi. 1878 – ci ildə Bakı valiliyinin ailəsi Valerian Pozen şəhərinə provaslav icması üçün

kilsə tikdirmək təklifi ilə çıxış etdi. Ali dini qurum (Sinod) bu kilsənin Persidskaya küçəsində (indiki Muxtarov), köhnə müsəlman qəbiristanlığının yerində tikilməsinə icazə verdi. Hökumətin yerli müsəlmanlarla 10 illik mübahisəsindən sonra, kilsənin inşasına başlanıldı. 8 oktyabr 1888 – ci ildə imperator III Aleksandr ailəsi ilə birlikdə Bakıya gəldi və kilsənin təməl daşının qoyulması mərasimində iştirak etdi. Kilsənin memarı alman Robert Marfeld, onun köməkçisi isə İosif Qoslavskiy idi. Fəqət inşaat büdcəsi tezliklə tükəndi və Bakı sakinləri tikintinin davamı üçün 200 min ianə topladılar. Bu məbləğin 75% - i müsəlmanlar tərəfindən verilmişdir, o, cümlədən Hacı Zeynalabdin Tağıyevində kilsənin tikilməsi üçün müəyyən məbləğdə ianə verdiyi vurğulanır. Eyni zamanda Bakının yəhudi icması da bu işdə yaxından iştirak etmişlər. Kilsənin inşaat işləri 1898 – ci ildə başa çatdırıldı. Kilsənin memarlığında qotika üslubu qabarıq şəkildə özünü büruzə verir. Memarlıq abidəsi mövcud olduğu günə qədər xristianların ibadətgah mərkəzlərindən ən əsası sayılırdı. SSRİ zamanında mədəniyyət və incəsənət nümunələrinə dəyən zərbələr Nevski kilsəsindən də yan ötmədi. Kilsə vandallıqla (partlayıcı maddə vasitəsi ilə) dağıdıldı. Hazırda isə kilsənin yerində mədəniyyət ocaqlarımızdan biri Bülbül adına Orta İxtisas Musiqi məktəbi yerləşir. Kilsə bu gün öz mövcudluğunu qoruyub saxlasaydı, memarlığı baxımından çoxlu sayda turistlərin diqqətini cəlb edərdi. [Şəkil 21].

XIX – XX əsrlərdə Azərbaycana köçürülmüş almanlar yerli əhali ilə qaynayıb qarışmaqla yanaşı, öz adət - ənənələrini, mədəniyyətlərini qoruyub saxlamağa nail oldular. Bu proses özünü almanların dini əsaslarında da göstərir ki, Azərbaycanın müxtəlif regionlarında, o, cümlədən Abşeron yarımadasında onlar özlərinin dini ibadətgahlarını ucaltdılar.

Bakıda Lüteran Kirxası 1895 – 1897 – ci illərdə şəhərin alman mənşəli əhalisinin istəyi ilə inşa etdirilib. Memar A. Eyxlerə təqdim olunan məktubda Yelendorf kirxasına bənzər bir abidə yaratmaq arzusu qeyd olunmuşdur. Lakin A. Eyxler Yelendorf kirxasını təkrarlamır. Bakı kirxasının uzaq prototipi kimi Marburq müqəddəs Yelzaveta kilsəsinin kompozisiyasına əsaslanan memar alman qotikasının bütün nailiyyətlərini istifadə edir. Kirxanın kompozisiyası nisbətən

sadədir: bir qülləli əsas həcm iki pilonla əhatə olunub. Buranın dekorativ tərtibatında qotikanın bütün elementləri məharətlə istifadə olunub: qotik vitrajlı roza, səmaya doğru yüksələn incə şaquli şpillər. Alman memarlıq ənənələri Azərbaycanda dərin izlər qoyub. XX əsrdə II dünya müharibəsindən sonra 10 minə yaxın alman əsirləri Bakının möhtəşəm tikililərində iştirak ediblər.(Hökumət evi, Mingəçevir su ambarı). Sovet dövründə Lüteran kirxasını dağıtmağa təşəbbüslər olub. 1940 – cı illərdə heykəltəraş P. Sabsay tərəfindən kirxanın qarşısında S. Kirovun abidəsi ucaldılır və kirxa ilə gözəl sintez təşkil etdiyinə görə, o dağıdılmır. [34, стр ,Şəkil 22].

Kirxa Azərbaycan Dövləti tərəfindən yenidən rekonstruksiya edildikdən sonra istifadəyə verildi. Kirxanın ilk qonaqları II Beynəlxalq Muğam müsabiqəsinin iştirakçıları olmuşdur. Hal – hazırda kirxanın yanında yerləşən və qotik üslubda həll edilmiş bir binada Alman mədəniyyət mərkəzi Kapelhaus yerləşir. Bu bina Almaniya hökuməti tərəfindən 99 illik icarəyə götürülüb.

Müqəddəs Varfolomey Apostolu. Varfolomey xristian dininin əsas fiqurlarından biridir. Matfey (10:3), Mark (3:18) və Luna (6:14) apostolların incilərində qeyd olunur. Üçüncü apostol Filipin dostu olan Varfolomeyi İsa peyğəmbərə təqdim edir. Ənənəvi olaraq onun Hindistana getməyi, Ermənistanda isə İuda Faddey ilə görüşü qeyd olunur. Hindistanda onun, Matfeyin incilini (yəhudi dilində) qoyduğu qeyd olunur. Rəvayətə görə hökmdarın qardaşı Astiaq "Alban şəhərində" Varfolemeyi edam etdirir. "Onu başı aşağı çarmıxa çəkirlər, lakin apostol danışmağı davam etdirir. Bu halda onu xaçdan endirirlər, dərisini soyub, başını kəsirlər". Müqəddəs Varfolemeyin qalıqlarını elə burada da xüsusi qutuya yerləşdirib dəfn edirlər. Albana şəhərinin yerləşməsinə dair bir neçə fərziyyə vardır. Ən geniş yayılmış fərziyyələrdən biri Bakının qeyd edilməsidir (Qız Qalasının qarşısında olan meydan). Digər şəhər kimi Qaradəniz sahilində olan Nikopolun adı çəkilir. 410 – cu ildə Varfolomeyin cəsədinin qalıqları Martiropol, 507 – ci ildə isə Dara şəhərinə aparılıb. Qriqori Tut xəbər verir ki, 574 – cü ildə farsların hücumu zamanı müqəddəs qalıqlar olan qutunu dənizə atırlar və o, möcüzə nəticəsində Zipari adasına çatır. 878 – ci ildən bu günə qədər İtaliyanın

Benevetto ehramında saxlanılır. Müqəddəs qalıqların ayrı – ayrı hissələri bir neçə yerdə Roma, Sam Bartolomeo kilsəsində, Afon ehramlarında və Bakıdakı Müqəddəs Mürdəşiyan Zənənlər Baş kilsəsində saxlanılır.[Şəkil 23].

Müqəddəs Varfolomeyə həsr olunmuş ilk kilsə onun əfsanəvi edam yerində Qız Qalasının qarşısında ki, meydanda yerləşib, lakin SSRİ - nin dinə qarşı vandalizm siyasəti nəticəsində Varfolomey kilsəsi də 1937 – ci ildə dağıdılıb [33,стр]. Möhkəm dini inancları olan xristianlar bu gündə apostolun mövcud olmuş meydanını ziyarət edir və dualarını edirlər.

Müqəddəs Mürdəşiyan Zənənlər Baş kilsəsi Bakı provaslav kilsəsidir. İncilə görə İsanın çarmıxa çəkilməsinin üçüncü günü onun cəsədini müt ilə yumağa gələn qadınlardan İsanın dirildiyi haqda ilk müjdə alınır. Bakı Baş kilsəsi bu qadınları xatirəsinə həsr edilmişdir. Abidə 1909 – cu ildə Rusiyanın Hərbi Nazirliyinin maliyyəsi hesabına memar F.M. Verjbitskinin layihəsi ilə tikilib. Bu tip xristian pravoslav kilsələri Rusiyanın bütün əyalətlərində tikilirdi və burada olan rus hərbiçiləri üçün nəzərdə tutulurdu. 1917 – ci ildə Rusiyada bu tipli 64 kilsə mövcud olub. 206 – cı Salyan piyada alayı üçün ucaldılan abidənin rəsmi açılışı 6 dekabr 1909 – cu ildə olmuşdur. Keşiş İoan Ziadze təyin edilmişdir. Sovet dövründə bağlanan ilk kilsələrdən olmuşdur. 1920 – ci ildə burada ambar, sonralar isə idman zalı fəaliyyət göstərib. Faciəli 1990 – cı il 20 yanvar günlərində kilsəyə iki snariyad düşür və abidə zədələnir. 1991 – ci ildə abidə Rus pravoslav kilsəsinə təqdim olunur. 2001 – ci ildə Patriarx II Alekseyin Bakıya səfəri zamanı kilsəyə Yeparxeyanın Baş kilsəsi statusu verilir. Xeyriyyəçi A. Qurbanovun səyi nəticəsində kilsə ikinci yeni həyata başlayır. Burada hərtərəfli təmir işləri başlayır: yeni ikonostos, divar rəsmləri tərtib olunur və kilsənin ləvazimatı alınır. 2003 – cü ilin 24 mart tarixində kilsənin təntənəli açılışı baş tutdu. Açılışda Ulu öndər Heydər Əliyev iştirak etmişdir. Qeyd olunduğu kimi 2003 – cü ildə Konstantinopol Patriarxı tərəfindən kilsəyə müqəddəs Varfolomeyin cəsədinin qalıqları göndərilmişdir ki, bu da kilsənin əsas dəyərlərindəndir. Burada pravoslavlar tərəfindən çox anılan "Tixvin" və "Kaspiy" Müqəddəs Ana ikonaları da qorunur.

Kilsənin sərdabəsində (kriptoda) Bakı Yepiskopu Mitrofon (Polikarpov) dəfn edilib.[Şəkil 24]

Müqəddəs Georgi kilsəsi 1863 – cü ildə inşa edilməyə başlayıb. Kilsə hal – hazırda fəaliyyət göstərmir (Nizami küçəsi). Bakı şəhərində mövcud olan bu kilsənin təmir edilərək mədəniyyətin inkişafında rolunu artırmaq olar. Buna misal olaraq Bakı şəhərinin mərkəzində fəaliyyət göstərən R. Behbudov adına mahnı teatrını göstərmək olar. Teatrın mövcud olduğu yerdə Sinaqoq fəaliyyət göstərmişdir. Hal – hazırda isə mədəniyyətimizə teatr binası kimi xidmət edir. Bu binanın timsalında Müqəddəs Georgi kilsəsini təmir etməklə, burada "Soyqırım" muzeyini yaratmaq mümkündür. Binanın bir hissəsində kitabxana fəaliyyət göstərir. Kilsə haqqında gələcək fikirlər isə buranın tamamilə təmir edilərək kitabxana kimi fəaliyyəti nəzərdə tutulur. Bu kilsənin istər kitabxana, istərsə də muzey kimi fəaliyyət göstərməsindən asılı olmayaraq, hər iki halda Azərbaycan mədəniyyətinin inkişafına xidmət göstərəcək. Bu kilsənin bu gün öz mövcudluğunu qoruyub saxlaması dünyaya bir daha tolerantlıq ismarışlarını göndərir.[Şəkil 25]

Azərbaycan azadlığını əldə etdikdən sonra hakim dairələrin doğru siyasəti nəticəsində, ölkədə dini azadlıq da mümkün oldu. İki qrup katolikin Vatikana yazdığı məktubda Bakıya rahib göndərilməsi arzusu ilə məktub göndərir. Bunların sırasında 30 – cu illərdə dağıdılmış Polşa kostyolunda xaç suyuna salınmış sakinlərdə qeyd olunurdu. Nəhayət 1997 – ci ilin iyul ayında Polşa mənşəli rahib Yeyi Piluş Bakıya gəlir. Onun və Polşa mənşəli katoliklərin səyi nəticəsində 1999 – cu il 2 aprel tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən Roma katolik dini icması qeydiyyata alınır, icmanın sədri Ofiş İsmayılov seçilir. İcmanın fəaliyyəti nəticəsində Seymur Əliyev 69B\1 ünvanında iki mərtəbəli mülk katoliklərin kilsəsi kimi SDB (Bosko Donun Salezianları) tərəfindən alınır. Sözsüz ki, bütün bu dini fəaliyyət Azərbaycan Respublikası hakim dairələri və şəxsən ümummilli lider H. Əliyevin qayğısı nəticəsində baş tutdu. Məhz onun dəvəti ilə 2002 – ci ilin 22 – 23 may tarixində Bakıya Roma Papası İoann Pavel II Bakıya gəldi. 2005 – 2007 – ci illərdə isə orijinal layihəli Müqəddəs Məryam kilsəsi

tikdirildi (Nobel prospekti, Orucov və Rəfiyev küçəsinin kəsişməsi). 200 insan üçün nəzərdə tutulan abidənin müəllifi İtaliyalı memar Paulo Rudferodur. Kilsə 2007-ci il tarixində Azərbaycan Respublikasının prezidentinin iştirakı ilə açıldı. Kilsəyə Polşa prezidenti Lex Kaçinski tərəfindən hədiyyə edilmiş zənglər xidmət göstərir.[Şəkil 26].

Abşeronda ümumiyyətlə Azərbaycanda mövcud olan dini təriqətlər öz dini inanclarını sərbəst şəkildə icra edirlər. Abşeronda olan xristianlıq dini abidələri istənilən baxımdan Azərbaycan mədəniyyətinin inkişafına xidmət edir. Azərbaycanda olan dinlərin nümayəndələri öz fəaliyyətlərində bütün insanların sərbəst, öz dini ibadətlərinin yerinə yetirilməsinə xidmət göstərir. Ölkəmizdə mövcud olan stabil şərait xarici ölkə vətəndaşlarının diqqətini cəlb edir. Bu isə ölkəmizə turist axınını sürətləndirir. İstər xristian, istər yəhudi, istərsə də islam dininə ibadət edən hər bir mömin Azərbaycanda öz dini ibadətgahlarında sərbəst şəkildə ibadət edirlər.

Xristianlıq dini abidələri ilə yanaşı ölkəmizin islam ölkəsi olması, islam dini ibadətgahlarının zəngin olması ilə də diqqəti cəlb edir. Abşeron yarımadasında mövcud olan islam dini abidələri öz tarixiliyi, memarlığı baxımından özündə tarixi – mədəni dəyərləri qoruyub saxlayır.

## 2.2. İslam memarlıq nümunələri mədəni tarixi dəyərlər kimi.

İslam monoteist (təkallahlı) səmavi bir dindir. İslam adı s – l – m kökündən törəmişdir. Bu kökün ümumi olaraq qəbul edilən iki anlamı vardır:

Sülh (salam da bu kökdəndir);

Boyun əymək, itaət etmək (Allaha təslim olmaqdır).

Beləliklə ümumi nəzər budur ki, İslam yeganə Allaha təslim olmaq, boyun əymək deməkdir. İslam dinini qəbul edənlər müsəlman adlanır. Müsəlmanlar, Allahın buyruqlarını və İslamın müqəddəs kitabı “Qurandan” və İslam Peyğəmbəri “Məhəmməd” in etdiklərini sünnə öyrənib, özlərinə örnək götürürlər. Müsəlmanlar hər gün 5 vaxt namaz qılmalı, Ramazan ayının orucunu tutmalı, Həcc ziyarətinə getməli, xüms və zəkat, eləcə də fitrə zəkatı verməlidir.

İslam dünyanın ən geniş yayılmış ikinci böyük dinidir və dünyanın ən tez böyüyən dinlərindən biridir. İslam VII əsrin əvvəllərində Qərbi Ərəbistanda (Hicaz əyaləti, Məkkə şəhəri) Allah tərəfindən Allahın sonuncu elçisi kimi Qureyişlər qəbiləsinin nümayəndəsi Məhəmməd Peyğəmbər tərəfindən yayılmışdı. İslamın başlanğıc nəzəriyyəsi "Qurani – Kərimdə" izah olunur. İslamın VII – VIII əsrlərdə Xilafətdə yayılması Xristianlıq, İudaizm, Zərdüştlük və Maniliyin müqaviməti ilə rastlaşdı. İslam öz növbəsində bir neçə təriqətlərə bölünür. Onlardan ən böyükləri Sünnülük və Şiəlik təriqətləridir. İslam dinində sünniliyə etiqad edənlərin əksəriyyəti bu təriqətə üstünlük verir və Məhəmmədin yolunu tuturlar. Şiəlikdə müsəlmanların ən az bir hissəsi bu məzhəbi seçib. Şiə sözünün mənası "tərəfdaş", "ardıcıl" deməkdir. Şiə Peyğəmbərin Əhli – Beytinə tabe olduğunu iddia edən məzhəbdir. IX – XI əsrlərdə feodal münasibətlərinin inkişafı dövründə islamın mistik – asketik istiqaməti Sufilik inkişaf edir.

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana çıxan İslam tezliklə dünyanın böyük bir hissəsinə yayıldı. Azərbaycanın islamlaşması da erkən islam fütuhatları ilə hicrətin 18 – ci ilindən (639 – cu il) başlanır. Tarixçi Bələzurinin məlumatına görə, artıq xəlifə Əli ibn Əbu Talibin hakimiyyəti dövründə Azərbaycan əhalisinin əksəriyyəti islamı qəbul etmişdi. İslam fütuhatları çox yerdə sülh yolu ilə (sülhən), bəzi yerlərdə isə silah gücünə (ənvətən) həyata keçirilirdi. [1, səh 156]. Azərbaycanda islamlaşmanın konkret formaları haqqında fikir yürütmək bir qədər çətindir, çünki bu məsələ indiyədək öyrənilməmiş qalır. Bu mürəkkəb prosesin bəzi mərhələlərini fərqləndirmək olar. Birinci mərhələ kimi VII əsrin ortalarından VIII əsrin əvvəllərinə qədər davam edən islam fütuhatları dövrünü göstərmək olar. Bu mərhələ 705 – ci ildə Alban dövlətinin süqutu və Alban kilsəsinin öz müstəqilliyini itirməsi ilə bitir. Akademik Z. Bünyadovun göstərdiyi kimi, bu mərhələnin sonunda islam Azərbaycanda hakim din olur, onu öz imtiyazlarını qoruyub saxlamaq üçün ilk olaraq yuxarı silkin adamları qəbul edib. İkinci mərhələ VIII əsrin əvvəllərində Qərbi İranda və İraqda Büveyhilərin hakimiyyətə gəlməsinə qədərki dövrü əhatə edir. Üçüncü mərhələ Büveyhilərin hakimiyyəti dövrünü əhatə edir. Bu dövrdə mötədil şiəlik Azərbaycanda yayılmağa

başlayır və Dərbəndə qədər gedib çıxır. Dördüncü mərhələ Səlcuqilər dövrünü (XIII – XIV əsrlər) əhatə edir. Bu mərhələdə sünnilik bölgədə güclənir, şiyəliyin mövqeyi zəifləyir. Beşinci mərhələ monqol istilaları dövrünü əhatə edir. Bu dövrdə sufilik geniş yayılır, Hürufilik güclənir. Altıncı dövr Səfəvilərin və XVI əsrdən etibarən Osmanlıların hakimiyyəti dövrü ilə bağlıdır. Səfəvilər şiyəliyi təbliğ edir və başlarına 12 şiə imamının şərəfinə 12 qırmızı zolaqlı əmmamə bağlayırdılar. Osmanlılar isə sünnü hənəfi məzhəbini yayırdılar. [9,səh 24]

Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil edilməsindən sonra islamlaşmanın yeni mərhələsini nəzərdən keçirmək olar. Bu mərhələnin əsas xüsusiyyəti müsəlman din xadimlərini ələ almaq və xristianlıqdakı kilsə strukturuna bənzər dini qurum yaratmaqdır. Bununla əlaqədar olaraq Rus çarı müxtəlif zamanlarda müsəlmanların dini işlər idarəsi barədə əsasnamə hazırlanmasını təklif etdi. 1872 – ci ildə "Zaqafqaziya şiə və sünni Məhəmmədi ruhanilər idarəsi haqqında əsasnamə" çar tərəfindən təsdiq edildi. Azərbaycan Demokratik Respublikası yaranana qədər Cənubi Qafqaz müsəlmanlarının dini işləri bu qurum tərəfindən tənzim edilirdi. ADR dövründə islamı rasionallaşdırmaq, müasirləşdirmək meylləri güclənirdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra dini qurum buraxılır, müsəlman din xadimləri təqiblərə məruz qalırlar. II Dünya müharibəsi zamanında Almaniyaya qarşı mübarizədə dini imkanlardan istifadə məqsədi ilə Zaqafqaziya Müsəlman İdarəsi yenidən qurulur. Qafqazda müsəlmanların dini təşkilatlanmasındakı dualizm aradan qalxır. Bu gün Azərbaycanda dinlər arasında yaranan dözümlük, tolerantlıq münasibətləri bütün Avropa ölkələri üçün pozitiv bir misal ola bilər. Azərbaycanın yaratdığı dövlət – din münasibətləri modelini artıq ixrac etməsi mümkündür. "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq simpoziumda Azərbaycanın Ümummilli lideri Heydər Əliyev demişdir: "Dünyada bir çox böyük dinlər mövcuddur. Hər bir dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda başqa dinlərə də müsbət mövqedən çıxış etmişik".

Hər bir dinin ibadət yeri olduğu kimi İslam dininin də özünəməxsusluğu ilə seçilən ibadətgahları mövcuddur. Funksiyasına və ellik dəyərinə görə islam ibadətgahlarını bütövlükdə dörd qrupa bölmək olar. Bunların ən sadəsi məhəllə və kənd məscidləri idi. İslam ölkələrində məscidlər ibadət üçün, dini mərasimlər keçirmək üçün tikilmirdi. Məscid çoxfunksiyalı ellik bina idi və onun içərisində keçirilən tədbirlər həm də müsəlmanlar arasında ünsiyyəti, birliyi gücləndirməli idi. İslamın bir üstünlüyü də onda idi ki, vahid dini əsasdan gələn ümumilik, birlik içərisində heç bir xalq dözümlüyünü itirmirdi. Azərbaycan dühası məscid binalarının tikintisi, inkişafı və təkamülü gedişatında öz sözünü demişdir. Bu proses özünü dövrün dini tikililərində göstərir ki, burada came, məscid, xanəgah və pirləri sadalamaq olar. İslam dinində özünəməxsusluğu ilə seçilən xanəgahları vurğulamaq yerinə düşər.

Xanəgah və ya xanagah bir təriqətin bütün təkyələrinin bağlı olduğu və şeyxin yaşadığı təriqətdə ən ali məqamdakı təkyəyə deyilir. Təkyələr əsasən təhsil və tərbiyə məkanları olub ara – sıra məscid vəzifəsini də yerinə yetirirdi. Şeyxin ailəsi ilə birgə qaldığı hissə ümumiyyətlə, təkyəyə bitişik olurdu. Zaman keçdikcə təkyələr memarlıq baxımından da böyük inkişaf yolu keçmişdir. Mükəmməl quruluşlu xanəgahda səmaxana, xəlvətxana, hücrələr – dərviş otaqları, məscid, axur, şeyx türbələri olur. Abşeron ərazisində olan bir neçə xanəgahlar bu gündə öz əzəmətini qorumaqla yanaşı həm mənəvi mədəniyyətimizə, həm də maddi mədəniyyətimizə tam anlamı ilə xidmət edir. İlk növbədə Seyid Yəhya xanəgahını vurğulamaq olar.

Seyid Yəhya xanəgahı Bakıda, İçərişəhərdə, Şirvanşahlar saray kompleksinin daxilində yerləşir. Xəlvətilik şeyxlərindən biri, mənşəcə Azərbaycan türklərindən olan böyük sufi alimi Seyid Yəhya Bakuvi burada yaşamışdır. Seyid Yəhya Bakuvinin Bakıda uzun müddət yaşadığı və hasar içində xanəgahının və türbəsinin olduğu müxtəlif mənbələrdə təsdiqlənir. A.A. Bakıxanov Bakı şəhərində "Seyid Yəhyaya mənsub olan məscidin yanında onun sovməəsi, mədrəsəsi və qəbri" olduğunu qeyd edir. M. Təbiyət də deyir : "Seyid Yəhya Bakıda məscid, mədrəsə və xanəgah sahibi olmuşdur və onun qəbri də oradadır". Bəzi mənbələrdə

Anadoludan gələn müridlərin Bakuviyə Bakıda yetişdiyini və onların sayının 20 min olduğunu qeyd edirlər. Orta əsr müəllifləri də bu haqda məlumat vermişlər. Bədr Şirvani Bakının abadlıq işləri haqqında məlumat versə də ancaq bu xanəgahın harada olması və tikilmə tarixi barədə məlumat verməmişdir. Saray bu gün də Şirvanşahlar saray kompleksi adlanan binalardan biridir. Ona görə də bu məkanın saray yoxsa xanəgah olduğu haqqında tarixçi və sənətşünasların konkret nəticələri yoxdur. Bu gün isə kompleksin ərazisinin açıq havada muzey kimi fəaliyyət göstərməsi əraziyə çoxlu sayda turistlərin axınının səbəblərindəndir. Buranı ziyarət edən hər bir turist Seyid Yəhya Bakuvinin xanəgahını da görmüş olurlar. Bu artıq xanəgahın tarixi – mədəni turizmin inkişafına öz təsirini göstərir. Türkiyənin Konya şəhərində Mövlanə Cəmaləddinin ibadətgahının bu gün müsəlmanların ziyarətgahlarından birinə çevrilməsi, bizə də imkan verir ki, Seyid Yəhya Bakuvinin xanəgahını həm dini turizmdə, həm də mədəni – tarixi turizmdə istifadə etmək mümkündür. Bakıda, ümumiyyətlə Azərbaycan ərazisində xanəgahla yanaşı, məscidlər, ziyarətgahlarda geniş şəkildə inşa edilirdi. İslamın bir üstünlüyü də onda idi ki, vahid dini əsasdan gələn ümumilik, birlik içərisində heç bir xalq öz mənsubluğunu itirmirdi. Azərbaycan memarlığında məscid binalarının tikintisi, inkişafı və təkamülü gedişində öz sözünü demişdir. [21, səh 42].

Bakı şəhərindən yerləşən, tarixi ilə qədim dini memarlıq abidəsi "Bibiheybət" məscidi XIII əsrdə Şirvanşah II Fərruxzad ibn Axistan tərəfindən inşa etdirilib. Burada şiəlikdə VII imam olan İmam Kazımın qızı Həzrəti Həkimə xanımın, imamın iki oğlan və bir qız nəvəsinin məzarı yerləşir. Məscidin divarında tarixi faktlar yazılan kitabə yerləşir. Bu kitabədə qeyd edilib ki, 1281 – 1282 – ci illərdə tikilən məscidin memarı Mahmud ibn Səyyiddir. Məşhur mütəfəkkirlər Bakıxanov, Beryozin, Dorn və Xanukov da bu kitabə haqqında yazıblar. VII imam Museyi Kazımın qızlarından Həzrəti Həkimə xanım Bibiheybətdə, Həzrəti Məsumə xanım Qum şəhərində, Həzrəti Rəhimə xanım Nardaran, Həzrəti Leyla xanım isə Bilgəh kəndində dəfn ediliblər. Həzrəti Həkimə xanımın burada dəfni müəyyən müddət sirr saxlanılsa da sonradan hamıya bəlli olur. Bunun nəticəsi olaraq buranı ziyarət edənlərin sayı artır ki, bunların içərisində Qubalı Fətəli xanı,

Xan qızı Xurşidbanu Natəvanı göstərmək olar. SSRİ – nin dini təqibləri bu məsciddən də yan keçməmişdir. 1934 – cü ildə bu ziyarətgah dinamitlə partladılıb. Məscid və minarə yerlə yeksan olunaraq üzərindən yol çəkilib. Lakin müstəqillikdən sonra 1997 – ci ildə Ümummilli lider Heydər Əliyevin göstərişi ilə 1998 – ci ildə məscidin bərpasına başlanıldı. Məscid klassik şərq üslubunda inşa edilib. İçəri hissə ağ mərmərlə bəzədilib və üzərinə müqəddəs ayələr yazılıb. Məscidin minarələrindən biri H. Əliyevin adını daşıyır. Məscidin bərpasından sonra 2008 – ci ildə yenidən açılış oldu. Bibiheybət məscidinin İpək yolu üzərində yerləşməsi bu ziyarətgahın ziyarətçilərinin sayını artırır. Məşədə, Kərbəlaya ziyarətə gedən dindarlar bu məscidi ziyarət etdikdən sonra yola davam edirlər. Bu bir daha Azərbaycanda dini turizmin inkişaf etdirilməsi üçün yüksək potensialın olduğunu göstərir. [Şəkil 27].

Aşur məscidi İçərişəhərin tarixi mərkəzində Qız qalası ilə Sınıqqala məscidi arasında yerləşən qədim məsciddir. Məscid XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən ləzgi camaatının daha çox toplanması ilə əlaqədar olaraq Ləzgi məscidi kimi tanınmışdır. Məscidin üzərindəki kitabəyə görə onu hicri 567 – ci ildə ustad Aşur İbrahim oğlu tikmişdir. Aşur məscidi bayırdan sadə prizmatik tutum şəkilindədir. Daş hörgü sistemindən onun üst hissəsinin sonralar yenidən tikildiyi hiss olunur. Daha qədim hörgü məscid divarının alt hissəsi nisbətən iri və müxtəlif ölçülü daşlardan ustalıqla yerinə yetirilmişdir. Məscidin baş fasadında kufi xətti ilə “Allah” sözü yonulmuşdur. Qədim məscidlərdən olan Aşur məscidinin ikiqatlı quruluşu Sınıqqala məscidi və Xıdır məscidi kimi İçərişəhərin enişli relyefinə uyğun yaradılmışdır.

Bəylər məscidi İçərişəhərdə, Şirvanşahlar sarayı kompleksinin yaxınlığında yerləşir və 1895 – ci ildə tikilib. Məscidin inşasında Məhəmməd Haşim Əl – Bakuvinin oğulları Hacı – baba və Hacı Cavad eləcədə məşhur milyonçu Murtuza Muxtarov, xəttat İbrahim Şirvani və b. iştirak etmişdilər. Daha qədim məscidin yerində inşa olunmuş özündə Avropa, Şərq eləcə də yerli memarlığın konstruktiv prinsiplərini birləşdirir. Burada ilk dəfə olaraq Bakı memarlıq məktəbinin

prinsiplərindən istifadə olunsa da Şirvanşahlar saray kompleksinin klassik tikintisi ilə heç bir ümumi cəhətləri yoxdur.[Şəkil 28].

Cümə məscidi (Köhnə Bakı) Bakıda yerləşən qədim məscidlərdən biridir. Sınıqqala məscidi kimi bu məscidin də qədim atəşgah binasının özülü üzərində inşa olunması haqqında fikirlər var. Köhnə Bakı Came məscidi 1899 – cu ildə uçurulmuş və yerində yenisi inşa edilmişdir. Bu səbəbdən məscid haqqında mühakimələr foto təsvirlər əsasında yürüdülür. Məscid Səlcuqlar dövrünün köşk tipli məscidlərinə bənzəyir. Bu özünəməxsusluqlarına görə eləcə də minarəsinin kürsülüyünə hörülmüş tikinti kitabələrinin ən əskisinin XII əsrə aid edilməsini nəzərə alan tanınmış alim Cəfər Qiyasi Bakı Came məscidinin əski gümbəzli salonunun həmin əsrdə tikildiyi qənaətinə gəlir. Başqa bir kitabə hicri 709 – cu ildə bu binanın tikildiyini bildirir. Görünür həmin dövrdə məscid təmir edilib. Məscidin minarəsi isə 1437 – ci ildə ucaldılmışdı. Bakı Came məscidi kompleksində dövrümüzə yalnız İçərişəhərin ən uca minarəsi qalmışdır. [21, səh 47, Şəkil 29].

Məhəmməd məscidi və ya Sınıqqala məscidi Bakının dövrümüzə çatmış ən qədim məscididir. İki yeraltı və yerüstü mərtəbələrdən ibarət olan məscid binası X – XI əsrlərdə inşa edilmişdir. Məscidə Sınıqqala adı 1723 – cü ildə rusların Bakını top atəşinə tutmasından sonra verilib. Xəzər sahili boyunca işğalçı yürüşlərə çıxmış rusların Bakını atəşə tutması nəticəsində məscidin minarəsi də zədələnmişdir. Bundan sonra xalq minarəyə “Sınıqqala” adını vermişdir. Məscidin Şimal tərəfindəki kufi yazıda deyilir ki; bu məscidin binasını tikməyi əmr etdi ustad ər – rəis Məhəmməd ibn Əbu Bəkr 1471 – ci ildə. Bəzi mütəxəssislər Məhəmməd ibn Əbu Bəkri məscidin memarı, Cəfər Qiyas isə sifarişçisi həm də, şəhərin rəisi olduğunu deyir. Sınıqqala Bakının ən qədim məscidi, minarəsi isə Şimali Azərbaycan minarələrinin ən qocamanıdır. [Şəkil 30].

Çin məscidi Şirvanşahlar Sarayı yaxınlığında yerləşir. Fasad üzərində, giriş qapısının üstündəki epiqrafik kitabə onun hicri tarixi ilə 777 – ci ildə Fəzullah İmam Osman Şirvani oğlunun vəsiyyəti ilə inşa olunmasından bəhs edir. Məhz buna görə bəzən məscidi onun adı ilə adlandırırlar. Digər epiqrafik yazıda məscidin 1186 – cı ildə Məsud Əli tərəfindən bərpa olunması haqqında məlumat vardır.

Məscidin “Çin” adını alması bu məscidə gələn insanların arzu və diləklərinin çin olması faktı ilə əlaqədardır. Məscidin inşasında Şirvan – Abşeron memarlıq məktəbinin prinsiplərindən istifadə edilmişdir.[Şəkil 31]

Şah məscidi Şirvanşahlar sarayının aşağı həyətində türbə ilə yanaşı yerləşir. Məscidin hündürlüyü 22 metrdir. Minarəni əhatə edən yazıdan məlum odur: “bu minarənin ucalmasını böyük sultan I Xəlilullah əmr etmişdir. Allah onun şahlığını və hakimiyyət illərini böyütsün 845-ci il” (1441-42 illər). Məscidə girməzdən əvvəl yuyunmaq və dəstəmaz almaq üçün həyətin şimal tərəfində, hündür meydançada quyu və kiçik hovuz vardır. Memarlıq formasına görə məscid çox sadədir. Onun giriş portalı bəzəksizdir, lakin minarə zərifliyi və gözəlliyi ilə diqqəti cəlb edir. Onun eyvanını saxlayan stalaktitlər və aşağıda yerləşən yazı kəməri yüksək sənətkarlıqla işlənmişdir. Minarə dilimli günbəzlə tamamlanır. Eyvanın ətrafı başqa böyük məscid minarələrində olduğu kimi üzəri oyma üsulu ilə bəzənmiş, daş məhəccərlə əhatə olunmuşdur. Sonralar rus ordusu tərəfindən şəhər top atəşinə tutularkən dağıdılmış daş məhəccər XIX əsrdə dəmir məhəccərlə əvəz edilmişdir. Məscidin daxilində şimal, şərq və qərbdən sadə işlənmiş qapılar açılır. Qapılardan şərq tərəfdəkindən şah və onun ailəsi, şimaldakından kişilər, qərbdəkindən isə qadınlar istifadə edirlərmiş. Gümbəzlə örtülən məscidin ibadət zalı mərkəzi hissədən və 4 tərəfdən birləşən çatma taxçalardan ibarətdir. Dilimli yarım gümbəzlə tamamlanan mehrab zərif stalaktitlərlə bəzənmişdir. Məscidin şimal-şərq küncündə tağ-tavanla örtülmüş kiçik bir otaq yerləşir ki, bura qadınlar üçün ibadətxana olmuşdur. Onun mehrabını sadə taxca əvəz edir. Mərkəzi zalın yuxarı küncündə divara hörülmüş zala açılan küplər səsi o qədər gücləndirirdi ki, mollanın səsi qadınlara məxsus otaqdan da eşidilirdi. Minbərin arxasında olan divar oyuğundan digər kiçik bir otağa keçmək üçün pilləkənlər vardır. Pəncərələrin qabağındakı daş şəbəkələr memarlıq baxımından olan bu binaya gözəllik verir. [Şəkil 32]

Bibiheybət məscidinin müxtəlif turizm marşrutlarının üzərində yerləşməsi, digər adları sadalanan məscidlərin, dini ocaqların İçərişəhər memarlıq kompleksinə daxil olması buranı ziyarət edən insanları eyni zamanda məscidlərin qədimliyi ilə

də tanış edir. Bura müsəlman turistin gəlməsi və onun ibadət vaxtının gəzinti ilə üst – üstə düşməsi, həmin turistə imkan verir ki, burada öz ibadətini yerinə yetirsin. Bununla əlaqədar olaraq dini ibadətgahlarında ardıcıllıqla bərpa olunması vacibdir.

Təzəpir məscidi Abşeron ərazisində yerləşən, bütün şərqdə nadir gözəlliyi ilə diqqəti cəlb edən, yaşı bir əsrdən çox olan tikilidir. Bu abidə təkcə Azərbaycanın deyil, bütün Qafqazın dini mərkəzi hesab olunur. Təzəpir məscidi ziyarətgah timsallı memarlıq abidəsidir. Ziyarətgahın tarixi olduqca qədimlərə, XIV – XV əsrlərə gedib çıxır. Tədqiqatçılar təsdiq edirlər ki, məscidin dərin süxur qatları altında mövcud olan türbəsi, zəmanəsinin görkəmli alimi və övliyası Əbu Seyid Abdullaya məxsus olub. Ziyarətgahın yerləşdiyi məkan ötən əsrin ortalarına qədər "Xəlfədam" adı ilə tanınırdı. Zaman keçdikcə Əbu Seyid Abdullanın türbəsi dağıntılara məruz qalıb. 1817 – ci ildə Bakı xanı Hüseynqulu xanın kürəkəni Qasım bəy məscidi əsaslı bərpa etdirib. Nabat xanım Xocabəy qızı birmərtəbəli məscid binasının yerində yeni ibadətgahın tikintisinə başlayır. Türbə üzərində yeni məscid tikildiyinə görə xalq arasında bu günə qədər də bu tikili "Təzəpir" məscidi adlanır. Məscid Nabat Aşurbəyli Rzayevanın vəsaiti ilə Zivərbəy Əhmədbəyovanın layihəsi əsasında 1905 – ci ildə inşa edilib. Bu abidə özünün həcm – məkan memarlıq həllinə görə tək Bakı şəhərsalma strukturunda deyil, həm də Abşeronun dini tikililəri arasında xüsusi yerlərdən birini tutur.[Şəkil 33]

Nardaran məscidi və ya Rəhimə xanım məscidi Abşeronda Səfəvilər dövrünə aid möhtəşəm 4 minarəlidir. XV əsr Şirvan memarlıq ənənələrinin XVII əsrdə də davam etdiyini göstərən abidələrindən biri Abşeron rayonunun Nardaran kəndində 1663 – cü ildə inşa edilmiş məsciddir. Məscidin üzərindəki kitabədə abidənin Muradəli tərəfindən tikildiyi göstərilir. Nardaran məscidi Şirvanşahlar saray kompleksi binalarının səviyyəsində duran yüksək keyfiyyətdə tikilmişdir. Məscid görünüşü ilə çoxlu sayda dindarları həm də turistlərin diqqətini cəlb edir. [Şəkil 34].

Nizaməddin məscidi Bakının Suraxanı rayonunda yerləşən Əmircan qəsəbəsinin ən qədim tarixi abidələrindən biridir. XIV əsrdə yonulmuş əhəng daşından tikilən bu məscidi Xilə kəndinin adlı – sanlı adamlarından olan Əmir

Nizaməddinin təşəbbüsü ilə inşa edilmişdir. Nizaməddin məscidini Əmir Nizaməddin Kəsrani Şirvanşahlar dövləti dövründə tikdirməyə başlamışdır. Məscidin mərkəzi hissəsinin qapısının üstündə fars dilində bir beyt yazılıb: "Dünya bir əyləncə, dəbdəbə, şan – şöhrət və iztirabdan başqa bir şey deyildir". Kitabənin ərəb dilində yazılmış; "Bu Allahın evinin tikilməsini əzəmətli Fəxrəddin oğlu Əmir Nizaməddin Əmirhac əmr etdi". Məscidin üzərindəki başqa kitabələrə əsaslanıb qeyd etmək olar ki, 1830 – 1831 – ci illərdə burada ciddi, əsaslı təmir işləri aparılmış və onun şimal divarının yanında yeni bir xanə tikilmişdir. Hər dəfə məsciddə aparılmış təmir işləri ilə əlaqədar olaraq memarlıq ünsürlərində əlavələr olunmuş və bu əlavələri edən şəxslərin adları kitabələrə həkk edilmişdir. Kitabələrin birində "həqiqətən bu məscidi Hacı Rəsul qızı Fatma xanım tikdirmişdir". Hal – hazırda məscid Əmircanın dindarlarına öz xidmətini göstərir. Abşeronda mövcud olan hər bir dini memarlıq nümunəsi həm mədəniyyətimizə, həm də mənəviyyatımıza xidmət göstərir.[Şəkil 35].

Bakı ərazisində eyni zamanda Türk memarlıq üslubuna əsaslanan məscidlər mövcuddur ki, bunlardan biridə Türk Camesi və yaxud Şəhidlik məscidi. Məscid 1995 – ci ildə Türk Diyanət Vakfı tərəfindən inşa etdirilmişdir. Məscid 1918 – ci ildə Erməni və Qırmızı Ordu əsgərlərinə qarşı azərbaycanlılara kömək edərkən şəhid olmuş Nuru Paşa komandanlığındakı 1130 Türk əsgərlərinin xatirəsinə Şəhidlər xiyabanı yaxınlığında inşa edilmişdi. Məscid özündə Türk memarlığının xüsusiyyətlərini cəmləmişdi. [Şəkil 36].

İslam dinində xanəgah, məscid anlayışları ilə yanaşı türbə anlayışıda özünəməxsusluğu ilə seçilir. Türbə görkəmli müsəlman alimlərinin, vəlihədlərin, hökmdar və hökmdar ailə üzvlərinin, əmirlərin, vəzir və hərbi rəhbərlərin qəbirləri üzərində ucaldılan, üzəri xüsusi qübbələrlə örtülmüş tikilidir. Tanınmış islam mütəfəkkirlərinin üstü açıq olan məzarlarına da onlara hörmət əlaməti olaraq türbə deyilir. Türbələr camaat tərəfindən ziyarətgaha çevrilir. Türbə anlayışı islam təliminə ziddir və islam ölkələrində türbə tikintisinin çox geniş yayılması, başlıca olaraq əksi türk gələnəklərinin bu regionun xatirə memarlığına yönəldici təsir göstərməsi ilə bağlıdır. Qülləvarı türbələrin soykökü haqqında elmi baxışlardan ən

geniş yayılanı və daha inandırıcı dəlillərə əsaslandırılanı bu memarlıq tipinin türk mənşəli olmasıdır. [21, səh 83]. Bir qrup alim qülləvarı türbələrin türk mənşəli olmasını təsdiq edərək, onların yaranmasını köçəri çadırının yaxud köçəri xalqların başçılarının iri çadırlarının monumental memarlıqda yamsılanması ilə əlaqələndiriblər. Q.A. Puqaçenkovanın fikrinə görə bu türbələr ideyaca Orta Asiyanın və Qafqazın türk xalqlarının qədim kurqanabənzər dəfn tikintilərinə bağlıdır. Manas dastanında türbə "gerçək ev" adlandırılır ("Manas öldü.... özünün gerçək evinə getdi"). Azərbaycanın müxtəlif ərazilərində bu tipli türbələr tikilmişdir. Buna aid "Qarabağlar", "Azman" türbələrini göstərmək olar. XIV əsrdə Əmir Teymur deyirdi ki; "xoşbəxt o kəsdir ki, içərisinə girməzdən öncə özünə türbə hazırlayır". XIII əsrin mütəfəkkir türk şairi Mövlanə Cəmaləddin Rumi öz ardıcıllarına vəsiyyət etmişdi; "Bizim türbələrimizi elə uca tikin ki, onlar hər yerdən görünsün". Türbələrin müsəlman dünyasında əsas yayıcıları Səlcuqlar olmuşlar. Qülləvarı türbələrin intensiv formalaşma prosesi Səlcuqlar dövründə getmiş, onlar XI – XII əsrlərdə bitkin quruluş kompozisiyası olaraq geniş ərazidə dayanıqlı memarlıq tipinə çevrilmişdir. Elə buna görə də çağdaş Avropa alimləri onları çox vaxt Səlcuq türbələri adlandırırlar.

Abşeronun ən geniş ziyarət edilən ziyarətgahlarından biri "Mir Mövsüm Ağa" – nın məzarıdır. 1883 – cü ildə dünyaya gələn Seyid Mir Talib Ağanın oğlu Seyidəli fiziki cəhətdən zəif olsa da, kiçik yaşlarında ailə üzvləri həm də qohumları onda qeyri – adilik hiss edirdilər. O, başı ağrıyan adama əlini çəkən kimi, həmin şəxsin bütün ağrıları keçirmiş. Seyidəlinin cəddinin, qüdrətinə görə ona Mir Mövsüm Ağa deyə müraciət edirdilər. Seyid uzun illər İçərişəhərdə yaşayıb. Sağlığında bu ev Mir Mövsüm Ağa ziyarətgahı kimi pənah yeri olub. Seyidəli vəfat etdikdən sonra onu Şüvəlan kəndində dəfn ediblər. Bu gün həmin ziyarətgahı yerli əhali ilə yanaşı, xarici ölkələrdən gəlmiş insanlarda ziyarət edirlər. Seyidəlinin Şüvəlandakı məzarını insanlar ziyarət etməklə yanaşı, Ağanın İçərişəhər saray kompleksində yerləşən evini də ziyarət edib, dua edirlər.

Şəhərin dini abidələrinin hərəsi öz siması, taleyi, tarixi yaddaşı ilə bənzərsizdir. Abşeron yarımadasında dini məqsədlə inşa edilən hər bir dini abidə

özündə hansı dinin xüsusiyyətlərini daşımasından asılı olmayaraq, həmin dinin yüksək mədəniyyətə malik olduğunun bir daha əyani sübutdur. İslam dininin meydana gəlməsi və Azərbaycanda yayılması burada öz əzəməti, möhtəşəmliyi, qədimliyi, gözəlliyi ilə seçilən dini ibadətgahların yaranmasına rəvac vermişdir. Bu gün Azərbaycanın ərazisində mövcud olan dinlər, məzhəbindən asılı olmayaraq. Azərbaycanda dini turizmin, tarixi– mədəni turizmin inkişafına imkan verir.

Ya Allah, əgər mən cəhənnəmin qorxusundan sənin qulluğundayamsa, yandır məni o cəhənnəmdə, əgər cənnətə düşmək arzusuna görə sənin qulluğundayamsa, qoymazsan məni o cənnətə, əgər mən sənə görə sənin qulluğundayamsa gizlətmə məndən öz sönməz gözəlliyini.

## Nəticə

Dini turizm hər hansı bir dini mərasimlərin, misiyyaların ibadətlərin yerinə yetirilməsi məqsədi ilə həyata keçirilən səyahətdir. Turizm firmaları bir qayda olaraq, bu kateqoriyadan olan turistlər üçün ənənəvi turizm marşrutları üzrə xidmət göstərirlər. Dindarların müqəddəs yerlərə daşınması və müqəddəs ziyarətgahların yaxın ərazidə yerləşdirilməsi, dini obyektlərə ekskursiyaların təşkili və s. Bəzi vaxtlarda turizm firmaları dini məqsədli turistlər üçün dini yerlərə marşrut da hazırlayır.

Buraxılış işində belə bir nəticəyə gəlirik ki, Abşeron yarımadasında mövcud olan dini memarlıq abidələri turizm baxımdan diqqəti özünə cəlb edir. Bu gün biz dünya tarixində bir çox dini memarlıq abidələrinin turizm baxımından ən önəmli

yerlərdən birini tutduğunun şahidi oluruq. Xristian dininin ən önəmli abidələrini özündə yaşadan Vatikan ölkəsinin dini memarlıq abidələrini hər il milyonlarla turist ziyarət edir. Bununla yanaşı həm qərb, həm də şərq ölkələrində bir çox dini memarlıq abidələri turizm baxımından aparıcı mövqeyə malikdir. Buna misal olaraq; Məkkə şəhərində yerləşən Kəbə evini, Məhəmməd peyğəmbərin məzarını, İmamların məzarlarını və bir çox din xadimlərin məzarlarını göstərmək olar.

İlkin səyahətlərin dini, ticari məqsəd daşıması insanların uzaq ölkələrə ziyarətinə zəmin yaratmışdı. Turizm anlayışının inkişafı artıq çalışmaqdan yorulmuş insanların həm fiziki, həm də mənəvi istirahətə üstünlük verməsi ilə nəticələnmişdi.  Azərbaycanın dünyada yaşayan insanlar üçün yeni maraq sahəsi olmasını xüsusi ilə vurğulamaq yerinə düşər. Ölkənin həm tarixi, həm də mədəni abidələrlə zəngin olması, eyni zamanda istirahət mərkəzlərinin zənginliyi Azərbaycanın turizm ölkəsinə çevrilməsində əsas meyar kimi önə çəkilməlidir. Bununla yanaşı Azərbaycanda dini turizmin də inkişaf etdirilməsi üçün yüksək potensialın olmasını sadalamaq vacibdir. Müxtəlif zamanlarda dini məqsədlə inşa edilmiş mərkəzlər bu gün dini turizmin eyni zamanda tarixi – mədəni turizmin inkişafındakı potensialını göz önünə çəkir. Misal olaraq; Şəki şəhərində inşa edilmiş Kiş (Cənubi Qafqazda ilk xristian-Alban kilsəsi) məbədi həm tarixi, həm də dini baxımdan yerli və xarici turistləri özünə cəlb edir. Abşeron yarımadasında inşa edilmiş zərdüştlük dini mərkəzlərindən qalmış yeganə mərkəzin turizm baxımdan əlverişli mövqeyə malik olmasını göstərmək istərdik. Zərdüştlük dininə sitayiş edən atəşpərəstlərin Hindistan, İran ərazisində yaşaması Azərbaycana gələnlərin sayını artırır. Bunun üçün ilk növbədə Atəşgahın yerləşdiyi ərazi tamamı ilə turizm baxımından təmir edilməli və turistlərin xidmətinə verilməlidir. Atəşgah eyni zamanda tarixi – mədəni turizmin inkişafında da yüksək potensiala malikdir. Tədqiqatın aparılması nəticəsində Abşeron ərazisində SSRİ dövründə məqsədli surətdə məhv edilmiş bir neçə xristianlıq abidələrini aşkarladıq. Azərbaycanın tolerant ölkə olması Azərbaycanı turist kimi ziyarət edən xristian və islam dininə sitayiş edən turistlər üçün yüksək potensiala malikdir. Tədqiqat aparılan zaman Abşeron ərazisində inşa edilmiş Müqəddəs Zənənlər Baş kilsəsində Müqəddəs

Varfolemeyin cəsədini qalıqlarının saxlanılması aşkarlandı ki, bu da bu gün ölkəmizə xristian turistlərin cəlb edilməsi üçün mükəmməl göstərici hesab edilə bilər. Azərbaycanın islam ölkəsi olması, eyni zamanda ölkəyə müsəlman ölkələrindən çoxlu sayda turistlərin gəlməsinə zəmin yaradır. Abşeron ərazisində mövcud olan, islamın müqəddəslərinə aid ziyarətgahların dini turizm baxımından rolunu vurğulamaq yerinə düşər. Həm yaxın tarixi zamanda inşa edilmiş ziyarətgahlar, həm də öz tarixiliyi ilə qədim olan ziyarətgahlar tarixi – mədəni turizmin və Azərbaycan üçün yeni xidmət sahəsi olan dini turizm çox əlverişlidir.
Buraxılış işində son olaraq belə nəticəyə gəldik ki, nəinki Abşeronda ümumiyyətlə Azərbaycanda mövcud olan dini, mədəni, tarixi abidələr və eyni zamanda ölkənin əlverişli coğrafi mövqedə yerləşməsi, məqsədindən asılı olmayaraq turizmin istənilən növünün inkişafına rəvac verir.

# Ədəbiyyat

Azərbaycan dilində


1. Azərbaycan Milli Ensiklopediyası, AME Elmi Mərkəzi, Bakı – 2007, s 884.
2. Azərbaycan arxeologiysı, daş dövrü I cild,Şərq – Qərb, Bakı – 2008, s 448.
3. Azərbaycan arxeologiyası, orta əsrlər II cild, Şərq – Qərb, Bakı – 2008, s 632.
4. Azərbaycan Tarixi (7 cilddə), I cild, Bakı – Elm, 2007, s 520
5. Azərbaycan Tarixi (7 cilddə), II cild, Bakı – Elm, 2007, s 608
6. Abdullayev Ç. "Bakıda Alman memarlığı mədəniyyəti", "Mədəni – Marif" qəz 2006, №5.
7. Aşurbəyli S. "Bakı şəhərinin tarixi", Bakı, "Avrasiya press" NPM, 2006, s 416.

8. Bakı bu gün və sabah, Bakı qəz, 19 yanvar 1973.
9. Bünyadov Z., "Dinlər, Təriqətlər, Məzhəblər", Bakı , Şərq – Qərb – 2007, s 336
10. Əfəndi R.,"Azərbaycan İncəsənəti", Bakı, Çaşıoğlu, 2001, s 312.
11. Əliyev T., "Qədim binalar cavanlaşır", "Kommunist" qəz, 31 iyul, 1983.
12. Əsgərov N., "Gözəl təşəbbüs", "Ədəbiyyat və incəsənət qəz", 4 sentyabr, 1971.
13. Fətullayev.Ş., "Bakı memarlığında modern", "Qobustan" jurnalı, 1978 № 1.
14. Fətullayev.Ş., "XIX – XX əsrlərdə Bakı memarlarının yaradıcılığında Azərbaycanın memarlıq irsinin tətbiqi", "Qobustan" jurnalı, 1976 № 1.
15. Fətullayev.Ş., "XIX – XX əsr Bakı qotikası", "Qobustan" jurnalı, 1976 № 4.
16. Hüseynov. İ., Əfəndiyeva N., "Qədim Dünya Mədəniyyəti", Mars – Print, Bakı – 2009, s 428.
17. İlkin. Q., "Bakı və Bakılılar", Bakı, NPM, 2006, s 384.
18. İbrahimov. N., "Köhnə Bakı", Azərbaycan Nəşriyyatı, Bakı, 1997, s 188.
19. Kulturalogiya, Bakı, Mars – Print, 2003, s 403.
20. Qaşqay .S., "Manna dövləti", Aərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993, s 107.
21. Qiyasi.C., "Nizami dövrü abidələri", Bakı – İşıq – 1991, s 258.
22. Qiyasi. C., "Abşeron abidələri", "Ulduz" jurnalı, №9, 1970.
23. Qiyasi. C., "Dədə minarə", "Ədəbiyyat və İncəsənət", qəz, 4 yanvar, 1980.
24. Qasımov. X., Nəcəfli T., "Şərqin tarixi abidələri", Respublika qəz, 1 dekabr, 2004.
25. Məmmədov. M., "İncəsənət və din", Gənclik, Bakı, 1971, s 140
26. Nemətova. M., "Azərbaycanda pirlər", Azərbaycan Dövlət Poliqrafiya birliyi, Bakı, 1992, s 102.
27. Niftəliyev.E., "Qalalar: Memarlığın qədim növü", "Azərbaycan " qəz, 3 aprel 2005.
28. Rzayev. N., "Əcdadların izi ilə", Azərbaycan Dövlət Nəşriyyatı – Poliqrafiya birliyi, Bakı, 1992, s 102.
29. Süleymanov. M., "Eşitdiklərim, Oxuduqlarım, Gördüklərim", Azərbaycan dövlət Nəşriyyatı, Bakı 1989, s 288.
30. Vəliyev.S., "Qədimdən, Qədim Azərbaycanım", Azərbaycan dövlət Nəşriyyatı, Bakı 1995, s 112.

Rus dilində

31. Ахундов. Д.А., “Архитектура Древнего и ранне – средневекового Азербайджана”, АГИ, Баку, 1986, стр 311.
32. Бретаницкий. Л.С, Веймарн. Б.В, “Искусство Азербайджана IV – XVIII веков”, Москва, 1976, стр 272.
33. Бретаницкий. Л.С, Саламзаде. С, Усейнов. М “Архитектура Азербайджана”, Москва – 1969 стр 512
34. Каджар.Ч., “Старый Баку”, Баку, ОКА, “Офест”, 2007, стр 204.
35. Фатуллаев. Ш.С., “Градостроительство и архитектура Азербайджана XIX - начала XX века”, Ленинград – стройиздат – Ленинградское отделение, 1986, стр 456.
36. Тагиев. И “Дворец Ширваншфхов или Ханагях”, Баку, Чашыгоглу 2006, стр 98

İnternet materialları.

37. http://islam.az.
38. http://www.icerisehe her.gov.az
39. http://www.azerbaijan.az

# İllüstrasiya

1. Qızıl Cam
2. Zərdüşt Peyğəmbər
3. Avestadan bir parça
4. Atəşgah məbədi
5. İçərişəhər qala
6. Qız Qalası
7. Mərdəkan Qalası
8. Şıx Qalası
9. Nardaran Qalası
10. Şağan Qalası
11. Ramana Qalası
12. İsmayilliyə binası
13. Səadət sarayı
14. Bakı Şəhər  Duması
15. Opera və Balet teatrının binası
16. Dövlət Filarmoniyası
17. A.Şaiq adına Dövlət Kukla teatrı
18. Hökumət evi
19. Beynəlxalq Muğam
20. Müqəddəs Mariya (Polşa Kostyolu) kilsəsi
21. Aleksandr Nevski Başkilsəsi
22. Bakı Lüterian Kirxası
23. Müqəddəs Varfolomey Apostolu
24. Müqəddəs Zənənlər Kilsəsi
25. Müqəddəs Georgi Kilsəsi
26. Müqəddəs Məryəm katolik kilsəsi
27. Bibiheybət məscidi
28. Bəylər məscidi
29. Cümə məscidi (Köhnə Bakı)
30. Sınıqqala məscidi (Məhəmməd məscidi)
31. Çin məscidi
32. Şah məscidi
33. Təzəpir məscidi
34. Nardaran məscidi
35. Nizaməddin məscidi

36. Türk məscidi (Şəhidlər məscidi)



Şəkil 1; Qızıl Cam



Şəkil 2; Zərdüşt Peyğəmbər



Şəkil 3; Avestadan bir parça



Şəkil 4;  Atəşgah məbədi



Şəkil 5; İçərişəhər qala



Şəkil 6; Qız Qalası



Şəkil 7; Mərdəkan Qalası



Şəkil 8; Şıx Qalası



Şəkil 9; Nardaran Qalası



Şəkil 10; Şağan Qalası



Şəkil 11; Ramana Qalası



Şəkil 12; İsmayilliyə binası



Şəkil 13; Səadət sarayı



Şəkil 14; Bakı Şəhər  Duması



Şəkil 15; Opera və Balet teatrının binası



Şəkil 16; Dövlət Filarmoniyası (1910 – 1912 – ci il)



Şəkil 17; A.Şaiq adına Dövlət Kukla teatrı (1910 – cu il)



Şəkil 18; Hökumət evi (1924 – cü il)



Şəkil ; 19 Beynəlxalq Muğam Mərkəzi



Şəkil 20; Müqəddəs Mariya (Polşa Kostyolu) kilsəsi (1909 -1912 ci il)



Şəkil 21; Aleksandr Nevski Baskilsəsi (1898 – ci il)



Şəkil 22; Bakı Lüterian Kirxası (1895 -1897 – cil il)



Şəkil 23; Müqəddəs Varfolomey Apostolu (XIX əsr)



Şəkil 24; Müqəddəs Zənənlər Kilsəsi (1909 – cu il)



Şəkil 25; Müqəddəs Georgi Kilsəsi (1863 – cü il)



Şəkil 26; Müqəddəs Məryəm katolik kilsəsi (2005 – 2007 ci il)



Şəkil 27; Bibiheybət məscidi
(1281 – 1282 ci illər)



Şəkil 28; Bəylər məscidi
(1895 – ci il)





Şəkil 30; Sınıqqala məscidi (Məhəmməd məscidi). (1471 – ci il)



Şəkil 31; Çin məscidi (777 – ci il)



Şəkil 32; Şah məscidi (1441 – 1442 – ci illər)



Şəkil 33; Təzəpir məscidi (XIV – XV əsrlər)

Şəkil 34; Nardaran məscidi (XVII əsr)



Şəkil 35; Nizaməddin məscidi (XIV əsr)

Şəkil 36 ; Türk məscidi (Şəhidlər məscidi)

